www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17-18 oktyabr 2015-ci il Şənbə № 230 (6258) Qiyməti 40 qəpik

**Xəbər**

## Vergi cərimələri və sadələşdirilmiş vergi dərəcələri artırılır

yazısı səh.4-də

**Gündəm**

### Nazirin avtovağzalındakı dərinləşən çatların gizlinləri...



Nəqliyyat Nazirliyinin tabeliyində olan qurum Ziya Məmmədovun obyektinə girişi bağlayıb

yazısı səh.10-da

### Yaşayış minimumu - 136 manatla neçə gün yaşamaq olar?

yazısı səh.12-də

### Həbsxanada əməliyyat olunan müsavatçı azadlığa buraxıla bilərmi?

yazısı səh.2-də

### Azərbaycanın müstəqilliyinin bərpasından 24 il keçir

yazısı səh.6-da

### Müsavatın namizədlərinin sayı 25-ə çatdı

yazısı səh.8-də

### Gədəbəyin icra başçısı Bakıya şikayətə gələn sahibkarı həbs etdirdi

yazısı səh.11-də

### Azərbaycanı ABŞ üçün vazkeçilməz edən səbəblər...

yazısı səh.9-da

### Böhran paytaxtın mərkəzindəki mağazaları da vurdu

yazısı səh.11-də

### Dağıstan prezidentini Naftalana gətirən səbəb...

yazısı səh.13-də

### Sahibkarlardan dövlət başçısına pambıq müraciəti...

yazısı səh.12-də

### Qadınların sevdiyi, kişilərin isə gizlətdiyi nişan üzüyü

yazısı səh.15-də

### Nəqliyyat Nazirliyinin "qoçuları" küçələrdən yığışdırılır

yazısı səh.11-də

## İqtisadi böhran xəbərdarlığı zənginləri təlaşa salıb

# VARLILAR BAKIDAN QAÇIR

Paytaxtda brend mağazalar və digər obyektlər kütləvi şəkildə bağlanır; məmur-oliqarxlara yaxın imkanlı təbəqə panikadadır; onların bir çoxunun əmlakı girovdadır, amma əllərində olan pulları müxtəlif yollarla leqallaşdırıb təcili şəkildə ölkədən çıxartmağa başlayıblar; iqtidar da baş verənlərdən narahatdır...



yazısı səh.4-də

## İŞİD-in tərkibində döyüşən azərbaycanlılar tutuldu

MTN növbəti antiterror əməliyyatı keçirdi; seçki ərəfəsində terrorçu qruplaşmalarla əlaqələri olan şəxslərin baş qaldırması təsadüfi deyil...

yazısı səh.3-də



*Arif Hacılı:*

### "Bu seçkilərdə hədəfimiz hakimiyyəti dəyişdirmək deyil"

yazısı səh.5-də



### İşçiləri Hacı İbrahimdən şikayət edir: "7 aydır maaşımızı vermir"

yazısı səh.6-da



*Azay Quliyev:*

### "Rüşvətxor məmurlar ciddi cəzalandırılmalıdır"

yazısı səh.10-da

# Nazirlik bir sıra lisenziyaları ləğv etdi




**İqtisadiyyat və Sənaye Nazirliyi bir sıra lisenziyaların ləğv edilməsinə qərar verib. Bu barədə İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Prezident İlham Əliyevin biznes mühitinin daha da yaxşılaşdırılması barədə verdiyi tapşırıqların icrası olaraq, İqtisadiyyat və Sənaye Nazirliyinin dünən keçirilmiş geniş kollegiya iclasında Nazirlik tərəfindən verilən əlvan metal, tərkibində qiymətli metallar və daşlar olan sənaye və istehsalat tullantılarının tədarükü, emalı, satışı və əmtəə birjası fəaliyyətinə lisenziyaların xüsusi razılıq (lisenziya) tələb edilən fəaliyyət növlərinin siyahısından çıxarılması barədə təkliflərin verilməsi qərara alınıb.**

Bununla yanaşı, xüsusi razılıq (lisenziya) tələb edilən fəaliyyət növlərinin siyahısına yenidən baxılaraq, sayının azaldılması barədə ən qısa zamanda təkliflərin hazırlanması barədə qərar qəbul edilib (Trend).

# Asim Mollazadə hesabat verdi



**Demokratik İslahatlar Partiyasının sədri, 1 noyabr 2015-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə keçiriləк seçkilərdə 22 saylı Nəsimi İkinci seçki dairəsindən namizədliyi irəli sürülmüş Asim Mollazadə seçki kampaniyası çərçivəsində seçicilərlə görüşüb. Partiya sədri öz seçicilərinə ötən beş il ərzində parlament fəaliyyəti barədə hesabat verib.**

Seçki platformasında prioritet təşkil edən məsələlərə toxunan A.Mollazadə deyib ki, ölkə iqtisadiyyatının gücləndirilməsi və şaxələndirilməsi üçün kiçik və orta sahibkarlığın inkişafına dəstək verilməlidir. Azərbaycanın imza atdığı strateji layihələrə, ölkənin inkişaf imkanlarına toxunan millət vəkili, bu gün təhsil, səhiyyə və sosial sahədə islahatların davam etdirilməsinin zəruri olduğunu dilə gətirib. O, xüsusi imtiyazlı təbəqələrin - şəhid ailələrinin, müharibə əlil və veteranlarının, sosial imkanları məhdud olan aztəminatlı insanların dövlət tərəfindən ciddi qayğı ilə əhatələnməsinin vacib olduğunu deyib.

DİP sədri Azərbaycan qadınlarının ictimai-siyasi həyatda fəallığının artırılması, gənclərin keyfiyyətli təhsillə təmin olunması, insanların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, tibbi sığorta sisteminin yaradılması ilə bağlı fikirlərini seçicilərlə bölüşüb.

DİP mətbuat xidməti xəbər verir ki, seçicilər də öz növbələrində A. Mollazadəyə Nəsimi seçicilərinin problemlərinə hər zaman diqqət göstərdiyinə görə təşəkkür ediblər. Onlar A. Mollazadədən sosial müavinətlərin artırılması, tibbi sığorta və təhsil işçilərinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı məsələləri parlamentin gündəliyinə gətirməyi xahiş ediblər.

❑ Vüqar MURAD

# Ankaradakı terror aktı ilə əlaqədar azərbaycanlı qız axtarışdadır

**Oktyabrın 10-da Ankarada baş vermiş partlayışla əlaqədar axtarışda olanlar arasında Azərbaycanlı Ülkər Məmmədova da var, xəbəri Türkiyə KİV-ləri yayıb. Öz növbəsində, Azərbaycanın İstanbuldakı baş konsulu Həsən Zeynalov bildirib ki, Türkiyə hökuməti heç vaxt Azərbaycana Türkiyədəki terror aktlarında iştirak edən Azərbaycan vətəndaşları və ya Azərbaycan milliyyətli şəxslərlə bağlı sorğu ilə müraciət etməyib.**

Zeynalovun sözlərinə görə, konsulluq əməkdaşlarından biri Türkiyə tərəfi ilə birlikdə Məmmədovanın Azərbaycanla əlaqəsinin olub-olmadığını araşdırır.

"Biz artıq müvafiq qurumlara sorğu göndərmişik və cavab gözləyirik. Konsulluğumuz regionda terror aktları ilə əlaqədar hüquq-mühafizə orqanları ilə birlikdə işləyir", deyə Zeynalov bildirib.

## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

# Ramil Usubov: "Bəzi polis bölmələrində hələ də nöqsanlar var"

**Daxili İşlər Nazirliyində (DİN) "Şəhər, rayon polis orqanlarında vətəndaşların müraciətlərinə baxılması və qəbulu işi"nin və "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə"nin vəziyyətinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**



Nazirliyin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, daxili işlər naziri, general-polkovnik Ramil Usubov Kollegiya iclasını açaraq müzakirəyə çıxarılan məsələlərin xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, vətəndaşların müraciətlərinə baxılmasının prezident İlham Əliyevin daim diqqət və nəzarətində olduğunu, məhz onun tapşırığına əsasən, son illər mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda mütəmadi olaraq vətəndaşların qəbulunu keçirdiklərini, onların problemlərini şəxsən dinlədiklərini vurğulayıb.

Qeyd olunub ki, kriminogen duruma mənfi təsir göstərən amillərdən olan narkotik vasitələrin qanunsuz dövriyyəsi də müvafiq sahədə fəaliyyətin təşkilinə xüsusi diqqət, vəziyyətin daim nəzarətdə saxlanılmasını və adekvat tədbirlərin vaxtında müəyyən edilib icraya yönəldilməsini tələb edir.

Nazir son illər hər iki istiqamətdə işin daha səmərəli yerinə yetirildiyini, lakin uğurlarla yanaşı, ayrı-ayrı ərazi polis orqanlarının fəaliyyətində hələ də müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu xatırladıb.

İclasa yekun vuran daxili işlər naziri, general-polkovnik R.Usubov müzakirə olunan hər iki məsələ üzrə bütövlükdə fəaliyyətin qənaətbəxş olduğunu, eyni zamanda qeyd olunan nöqsan və çatışmazlıqların aradan qaldırılmasını tələb edib, konkret tapşırıq və tövsiyələrini verib.

Qarşıdan dövlət əhəmiyyətli mühüm tədbirin-növbəti parlament seçkilərinin gəldiyini xatırladan R.Usubov daxili işlər orqanlarının bu sahədə böyük təcrübəyə malik olduğunu, asayişin qorunması və təhlükəsizliyin təmini məsələlərində onların üzərinə qanunvericilikdən irəli gələn mühüm vəzifələr düşdüyünü, əvvəlki illərdə və anoloji tədbirlərdə olduğu kimi, hər bir əməkdaşın qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gələcəyinə əminliyini ifadə edib.

**O, bir daha qeyd edib ki, bu gün daxili işlər orqanlarının qarşısında duran əsas vəzifə dövlətimizin tərəqqisi və qüdrətlənməsi, xalqımızın sosial rifahının yüksəldilməsi sahəsində prezident cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət siyasətinin başlıca təminatlarından olan ictimai-siyasi sabitliyin etibarlı qorunması, daha da möhkəmləndirilməsidir. Ölkəmizdə sabitliyi, əmin-amanlığı pozmaq, qarışıqlıq, xaos və anarxiya yaratmaq istəyən qüvvələrin qarşısı qanunların verdiyi imkanlar çərçivəsində ən sərt, qətiyyətli şəkildə alınacaq.**

# Müsavat AXCP-ni ciddiyə almır

## Gülağa Aslanlı: "Onlardan fərqli olaraq, Müsavat mübarizəni müxalifətlə yox, hakimiyyətlə aparır"

**AXCP və Milli Şuranın bir sıra üzvlərinin Müsavat Partiyasına qarşı ittihamları son günlər daha da artıb. AXCP-yə yaxın qəzetdə Müsavat Partiyasına qarşı həqarət dolu ittihamlar yağdırılır, Müsavatın seçkidə iştirak etməsini hakimiyyətin xeyrinə addım kimi təqdim edirlər.**

Müsavat Partiyası isə AXCP və Milli Şuradan irəli sürülən fikirlərə artıq ciddi əhəmiyyət vermək istəmir.

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı** bu barədə açıqlamasında bildirdi ki, kiminsə sosial şəbəkədə nəsə yazması, hansısa qəzetlərdə əsassız fikirlər deməsi Müsavatı bildiyi yoldan çəkindirə bilməz: "Azərbaycan Xalq Cəbhəsi Partiyasının funksionerləri və Milli Şuranın bəzi üzvlərinin Müsavat Partiyasının parlament seçkilərində iştirakını tənqid etməsinin məntiqi yoxdur. Onlardan fərqli olaraq, Müsavat Partiyası mübarizəni müxalifətlə yox, hakimiyyətlə aparır. AXCP və Milli Şura üzvləri siyasi mübarizəni müxalifət daxilinə keçirmək niyyətindədirlər. Müsavat Partiyasının isə belə fikri yoxdur. O adamlar da özləri üçün müəyyənləşdirsinlər ki, müxalifətlə mübarizə yolunu seçiblər, ya hakimiyyətlə?! Bunu dəqiqləşdirəndən mən onlara cavab verərik. İndilikdə isə onların nə danışmasını ciddiyə almırıq".

❑ E.SEYİDAĞA




# Elza Seyidcahan: "Seçicilərimə o şəkilin tarixi haqda danışıram"

**54 saylı Şabran-Siyəzən Seçki Dairəsindən namizəd olan Elza Seyidcahan rəsmi qərardan yalnız 6 gün sonra, yəni oktyabrın 15-də təbliğat-təşviqat kampaniyasına başlayıb. Namizəd kampaniyaya gec başlamasının səbəbi barədə "Yeni Müsavat"a danışıb:**

"Bilirsiz ki, əvvəldə mənə qarşı haqsızlıq olmuşdu. Lakin çox şükür ki, sonda haqq öz yerini tapdı. Seçicilərlə görüşdə aydın olur ki, onlarda gələcəyə qarşı böyük inam var".

Seçki kampaniyasına "Nə gec, nə tez, tam zamanında gəldim" şüarı ilə qatılan Elza Seyidcahan qərargahında yerləşdirdiyi ilginc fotosondan da danışıb: "Mənim seçki qərargahım Siyəzən şəhərində, H.Əliyev prospektində yerləşir. Bu, təsadüfi deyil, çünki mən həmişə onun yolunu dəstəkləmişəm. Hətta qərargahımda onunla olan fotomu asmışam. Seçicilərimlə görüşümdə o fotonun tarixi haqda danışıram.

Belə ki, bir dəfə yuxumda Heydər Əliyevi görmüşdüm. Sonra konsertdə onunla rastlaşdım və o məni danışdırdı. Bu vaxt bizim birlikdə fotomuzu çəkdilər və məmnuniyyətlə hazırda həmin fotonu qərargahımda yerləşdirmişəm".

**Əməkdar artist jurnalistlərə olan gileyini də bildirib:** "Bəzi jurnalistlər var ki, onlar mənim dediklərimi təhriflə verir. Buna görə də özüm də danışarkən diktafonumu açıq qoyuram. Jurnalistlərdən çox xahiş edirəm, mənim dediklərimi olduğu kimi yazsınlar".

❑ Xalidə GƏRAY



# Əməliyyat olunan müsavatçı gənc azadlığa buraxıla bilərmi?

## Mirvari Qəhrəmanlı: "Əfv oluna bilər"

**Həbsdəki müsavatçı gənc Sirac Kərimlinin oktyabrın 14-də həbsxanada kor bağırsaqdan əməliyyat olunması barədə xəbər vermişdik. Vicdan məhbusu hazırda reanimasiyadadır. Yaxınları hələ də onunla görüşə bilmirlər.**

S.Kərimlinin atası Raqif Kərimli övladının səhhətinin hələ də ağır olduğunu bildirdi: "Əhməd adlı növbə rəisi var. O dedi ki, yanına gəlməyin. Siracın yanında olan bir xəstə ilə danışdıq. Dedi ki, səhhəti hələ də ağırdır. Övladımın ağır vəziyyəti ilə bağlı hər hansı bir aidiyyatı orqana azadlığa çıxması üçün müraciət etməyi düşünmürəm".

**Müsavatçı gəncin vəkili Nemət Kərimli** hüquqlarını müdafiə etdiyi şəxslə görüşə bilmədiyini, yaxın günlərdə yenidən görüş üçün cəhd edəcəyini bildirdi. Vəkil Sirac Kərimli ilə görüşdükdən sonra ölkə başçısına və digər orqanlara müraciət edib-etməyəcəyi barədə dəqiq fikrə gələcəyini qeyd etdi.

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı** müsavatçı gənclə yaxından maraqlanmaq istədiklərini bildirdi: "Vəziyyəti yerində görmək istəyirik. Sadəcə bəzi qanunlar var ki, hamı tabe olmalıdır. Ədliyyə Nazirliyinin bu barədə icazəsi olmalıdır. İşçi Qrupunun reqlamenti var. Biz ora qurum olaraq baş çəkə bilmərik. Çünki, İşçi Qrupunda nazirlikdən olan nümayəndələr var. Onların müəyyən fəaliyyətləri var. Yaxşı olardı ki, Sirac Kərimlinin valideynləri də İctimai Komitəyə müraciət etsinlər. Bundan sonra inanıram ki, komitə ona baş çəkəcək. Bu ilin aprelində biz xəstə olan məhbuslar, eləcə də, cəzalarının bir hissəsini çəkmiş şəxslərlə bağlı Əfv Komissiyasına müraciət etdik. Sirac şükürlər olsun ki, həyatdadır. Allah eləməsin, ölə bilərdi. Yalan danışmağı sevmirəm. Düşünmürəm ki, indiki vəziyyəti ilə bağlı Siracı əfv etsinlər. O cəzasının bir hissəsini çəkdikdən sonra əfv oluna bilər. Əfvdən çox qızıl amnistiyanın olmasını istərdim. Çoxlu sayda şəxsin azadlığa çıxmasını istəyirəm. Elə məhbuslar var ki, əfv yazmayıblar. Onlar özlərini günahkar bilmirlər. Mehriban xanımın ötən dəfə bununla bağlı təklifi oldu. Bu dəfə də belə bir təklif etməsini istərdik. Əfv olsa, ölkəm üçün böyük başucalığı olardı".

❑ Cavanşir ABBASLI



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Milli Təhlükəsizlik Nazirliyi tərəfindən anti-terror tədbirləri həyata keçirilib.**

# İŞİD-in tərkibində döyüşən azərbaycanlılar tutuldu

## MTN növbəti antiterror əməliyyatı keçirdi; seçki ərəfəsində terrorçu qruplaşmalarla əlaqələri olan şəxslərin baş qaldırması təsadüfi deyil...



Milli Təhlükəsizlik Nazirliyinin İctimai Əlaqələr İdarəsindən verilən məlumata görə, nazirlik tərəfindən həyata keçirilmiş anti-terror tədbirləri nəticəsində, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silah, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə, həmçinin, terrorçuluğa hazırlıq, yəni dövlət hakimiyyəti orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə, Azərbaycan Respublikası vətəndaşları və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri dini məzhəbləri yaymaq, dini ayinlərin icrası adı altında, dini düşmənçilik zəminində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma, eləcə də həmin qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə və digər hüquqazidd əməllərinin törədilməsinə görə Azərbaycan Respublikasının vətəndaşları - Quliyev Namiq Şahid oğlu, Hacıverdiyev Xalid Əliağa oğlu, Əhmədov Taleh Mahir oğlu, Əsgərov Elvin Əsgər oğlu və Mahmudov Anar Kərəm oğlu şübhəli şəxs qismində tutulublar.

Faktlarla bağlı Milli Təhlükəsizlik Nazirliyi İstintaq Baş İdarəsi tərəfindən AR Cinayət Məcəlləsinin 12.1, 279.1-ci, 12.3,28,214.2.1, 12.3,28,214.2.3, 12.1,218.2-ci və 283-1.3-cü maddələri ilə cinayət işləri başlanılmışdır. Quliyev Namiq Şahid oğlu, Hacıverdiyev Xalid Əliağa oğlu, Əhmədov Taleh Mahir oğlu, Əsgərov Elvin Əsgər oğlu və Mahmudov Anar Kərəm oğlu təqsirləndirilən şəxs qismində cəlb olunaraq məhkəmənin qərarları ilə barələrində həbs qətimkan tədbirləri seçilib.

Müəyyən edilib ki, Namiq Quliyev, Xalid Hacıverdiyev, Taleh Əhmədov, Elvin Əsgərov və Anar Mahmudov 2012-2015-ci illər ərzində müxtəlif vaxtlarda Suriya Ərəb Respublikasının və İraq Respublikasının ərazisində həmin dövlətlərin, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan ayrı-ayrı silahlı birləşmələrin, o cümlədən "İslam Dövləti (İŞİD)", "Cəbhətül-Nusra" və «Cumdul-Xilafə» terrorçu təşkilatlarının fəaliyyətində iştirak ediblər.

Cinayət işləri üzrə bütün halların araşdırılması, bu hüquqazidd əməllərin digər iştirakçılarının müəyyənləşdirilməsi istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Nəzərə çatdıraq ki, İŞİD peyda olandan ona xeyli sayda azərbaycanlının qoşulduğuna dair məlumatlar və faktlar var. İndiyədək xüsusi xidmət orqanları bu şəbəkə ilə əlaqələri olan onlarla şəxsi saxlayıb. Bir müddət öncə saxlanılmış şəxslərdən bir qrupuna hökm oxunub və onlar ağır cəzalar alıblar.

Ekspertlər bildirir ki, İŞİD-lə bu və ya digər şəkildə əlaqələri olmuş və Azərbaycana dönmüş insanlar real təhlükə mənbəyi olaraq qalırlar. Yəni onların sağ-salamat ölkəyə geri dönmələri təsadüfi deyil. Belə ki, İŞİD sıralarına qoşulmuş şəxslər düşərgədən qaçmaq istəyərlərsə, onlar qətlə yetirilirlər. Əgər bu şəxslərə geri dönmək üçün şərait yaradılıbsa, deməli, üzərlərinə hansısa missiyalar qoyularaq göndəriliblər. Odur ki, həmin şəxslərin zərərsizləşdirilməsi mütləqdir.

Ekspertlər bir məqama da diqqət çəkirlər ki, hər dəfə seçki ərəfəsində radikal dini qruplaşmalarla, terrorçu şəbəkələrlə əlaqələri olan şəxslər daha da aktivləşir. Yəni onlar seçki ərəfəsində təxribatlar törətməyə, aranı qatmağa cəhd edirlər. Xüsusi ilə regionda vəziyyətin daha da gərginləşdiyi bir vaxtda missioner qüvvələrin hərəkətə keçməsi gözlənilən məsələdir.

Amma görünən budur ki, onlar daim nəzarətdədir və bu cür həbslərin davamı da ola bilər.

Bir məqamı da diqqətə çatdıraq ki, təxminən bir ay öncə terrorçu qruplaşmalarla əlaqələri olan daha bir azərbaycanlı da Ukraynada saxlanılmışdı.

Azərbaycan prezidentinə sui-qəsd hazırlamaqda ittiham olunan və 2012-ci ildə zərərsizləşdirilən dəstə ilə əlaqədə olmaqda təqsirləndirilən Valeh Əmirəliyevin Ukrayna üzərindən Türkiyəyə getmək istəyərkən həbs edilmişdi.

Qusar rayon sakini, 1986-cı il təvəllüdlü Valeh Cavanşir oğlu Əmirəliyevin "Eurovision-2012" mahnı müsabiqəsi ərəfəsində Azərbaycanda silsilə terror aktları planlaşdırmaqda və ölkə başçısına sui-qəsd hazırlamaqda təqsirləndirilən Vüqar Padarovla yaxın əlaqələri olub. V.Əmirəliyev V.Padarov və Samir Sanıyevin rəhbərlik etdiyi dəstənin bəzi üzvləri ilə birgə Rusiyada da bir sıra ağır cinayətlər törədib. V.Əmirəliyev 2011-ci ilin noyabrında mütəşəkkil dəstənin üzvləri İlham Gülməmmədov, Faiq Süleymanov və Zaur Seyidovla birgə Zaqatala şəhərinə gələrək Vüqar Padarovla görüşüb, Azərbaycanda həyata keçirməyi planlaşdırdıqları terrorla bağlı müzakirələr aparıb. Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin (MTN) 2012-ci ildə həyata keçirdiyi xüsusi əməliyyat nəticəsində ölkədə terror aktları hazırlayan həmin dəstənin bir çox üzvü həbs edilib. Dəstənin başçısı Vüqar Padarov isə əməliyyat zamanı öldürülüb...

**Görünən budur ki, seçki ərəfəsində terror hörgütləri ilə təmas və əlaqələri olmuş şəxslər yenə də hərəkətə keçiblər. Bu baxımdan radikal təmayüllü qruplaşmalarla əlaqələri olmuş şəxslərin həbsinin sonuncu əməliyyatla kifayətlənməyəcəyini düşünmək olar.**

**T.ƏHMƏDLİ**




# Ziyalılardan Əlizadə Aysel Alim qızına dəstək

## 26 məşhur imza xanım namizəd üçün seçicilərə müraciət etdi

**Azərbaycanın - aralarında yazıçıların, şairlərin, jurnalistlərin, politoloqların, iqtisadçıların, bəstəkar və müğənnilərin olduğu - bir neçə tanınmış ziyalısı deputatlığa namizəd Aysel Əlizadəyə dəstək bəyanatı verib. Namizədin seçki qərargahından musavat.com-a daxil olmuş həmin müraciət-bəyanatı təqdim edirik:**

"Biz, imzası olanlar 8 saylı Binəqədi 1-ci seçki dairəsindən deputatlığa namizəd yazıçı-publisist Aysel Əlizadəni qarşıdan gələn 01 Noyabr 2015-ci il tarixinə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə dəstəkləyir və onu deputat kimi görmək arzusunda olduğumuzu bəyan edirik. Qeyd olunan dairədə səsvermə hüququ olan vətəndaşları sosial-siyasi yüklü proseslərdə fəal iştirakçı olmağa çağırır, seçim edən zaman Aysel Əlizadəyə verdiyimiz önəmi nəzərə almalarını xahiş edirik. Ayselin millət vəkili seçilməsi Azərbaycan mədəniyyətinin - ədəbiyyatın, jurnalistikanın, televiziya sahəsinin, ümumilikdə maarifçiliyin inkişafı istiqamətində görülən işləri daha da irəliyə apara, ictimai xadimlərin, ziyalıların, yaradıcı adamların vətəndaş cəmiyyəti quruculuğunda iştirakını gücləndirə bilər.

**1. Qulu Məhərrəmli - əməkdar jurnalist, professor**
**2. Rafiq Hüseynli - diktor, xalq artisti, professor**
**3. Sənubər İsgəndərli - xalq artisti**
**4. Kamran Nəzirli - yazıçı, tərcüməçi**
**5. Nəriman Əbdülrəhmanlı - yazıçı, tərcüməçi**
**6. Baba Vəziroğlu - şair, əməkdar incəsənət xadimi**
**7. Hikmət Hacızadə - politoloq, ictimai xadim**
**8. Qubad İbadoğlu - iqtisadçı alim**
**9. Vaqif Əsədov - xalq artisti, rejissor**
**10. Niyazi Mehdi - fəlsəfə elmləri doktoru-filosof**
**11. Musa Yaqub - şair, ictimai xadim**
**12. Lalə Məmmədova - müğənni, əməkdar artist**
**13. Qan Turalı - yazar**
**14. Kənan Hacı - yazar**
**15. Fuad Poladov - xalq artisti**
**16. Fərid Hüseyn - şair**
**17. Esmira Fuad - yazıçı, alim**
**18. Firudin Qurbansoy - astroloq, filologiya elmləri namizədi**
**19. Şəhriyar del Gerani - şair**
**20. Azər Ayxan - "Yeni Musavat" qəzeti baş redaktorunun birinci müavini**
**21. Kəmalə Abiyeva - şairə, pedaqoq**
**22. Əvəz Zeynallı - journalist, "Xural"qəzetinin baş redaktoru**
**23. Sahilə İbrahimova - yazar**
**24. Rəbiqə Nazimqızı - yazar, şair**
**25. Paşa Qəlbinur - şair, professor**
**26. Həmid Herisçi - yazıçı, teleaparıcı**

Bütün dostları Əlizadə Aysel Alim qızının namizədliyini dəstəkləməyə çağırırıq. Siyahıya qoşulmaq istəyənlər seçki qərargahının aşağıdakı internet ünvanlarına müraciət edə bilərlər:

**aysel.alizade@gmail.com**
**https://www.facebook.com/AlizadeAysel"**

YENİ MÜSAVAT
N 230 (6258) 17 oktyabr 2015



# Sistem böhranından çıxış yolu varmı?

Azər RƏŞİDOĞLU

**Rəsmi Bakı sistemli böhranın uzaqda olmadığını dərk edir. Bir yandan iqtisadi böhran, digər tərəfdən diplomatik müstəvidə xeyli problemlər yaşamaqdadır.**

Hazırda istər Qərb, istərsə də Rusiya rəsmi Bakıya təzyiqlərini davam etdirir. Son 20 ilin ən ciddi hakimiyyət böhranının mövcudluğu isə vəziyyəti xeyli dərəcədə ağırlaşdırır. Bir sözlə, "əsəb müharibəsi" artan xətt üzrə inkişaf edir.

Bütün bu amillər Bakını islahatlara getməyə və təkamül yolu ilə əsaslı dəyişikliklərə nail olmağa sövq edir.

Baxmayaraq ki, Rusiya artıq MDB məkanında alternativ siyasi qüvvələrin mövcudluğunu bəyan edir, Qərb sərt addımlardan hələ də çəkinir. Nəzərə alaq ki, Rusiyanı qabaqlamaqdan ötrü Qərbin "Yaxın Şərq dərsləri"ndən öyrəndiyi təcrübə mövcuddur və bu dəfə bu ssenari Bakıda həyata keçirilə bilər. Qərbin bu soyuqqanlı davranışı hansısa məlumatlara malik olmaq təsiri bağışlayır. Ehtimal etmək olar ki, müxalifətin, ziyalıların iştirakını nəzərdə tutan və post-prezident seçkiləri dövrünə hesablanmış komandanın yaradılması və danışıqların getməsi bu dərəcədə soyuqqanlı davranışa əsas verir.

Göründüyü kimi, bir tərəf "ərəb baharı" təhdidi ilə Qərb, digər tərəf isə hərbi təhdidlə Kreml rəsmi Bakını güzəştlərə vadar edir. Son nəticədə Qərb və Rusiya vahid məxrəcə gələ bilərlər. İstənilən halda, Azərbaycanda əsaslı dəyişiklər üçün zəmin yaradılır.

Hər iki tərəfin təzyiqləri son nəticədə danışıqlarla başa çata bilər. Bu baxımdan, bəzi məmurların da danışıqların iştirakçısı olması Qərb və Rusiyanın birgə layihəsi kimi də dəyərləndirilə bilər.

Bu məsələdə "əsas hakim" kənar qüvvələrdir və onlara qarşı barışmaz mövqe nümayiş etdirmək yanlış olardı.

Bir sözlə, Azərbaycanda siyasi islahatlar və təkamül yolu ilə dəyişiklik nəzərdə tutulur. Bu, yaxın illər ərzində tədricən həyata keçirilə bilər. Əsəb, emosiya, düşünülməmiş radikallıq fayda verə bilməz. Hakimiyyət dəhlizlərində ciddi boşluq yaranır. Kadr dəyişikliyi və harın məmurların həbsi qaçılmaz görünür. Lakin prezident parlament seçkiləri öncəsi hansısa köklü dəyişikliklərə gedə bilməz və komandasını indiki qeyri-sabit şəraitdə qətiyyən dəyişə bilməz. Sadəcə, regionlarda sosial narazılıqlar artmaqdadır. Bu baxımdan siyasi elita hansısa çıxış yolları tapmaq istəyir və komandasını dəyişəcəyi mesajı ilə cəmiyyətə ünvanlanan çıxışlar etməyə başlayır. Hazırkı mərhələdə məmurlardan dərhal azad olmaq domino effektinə səbəb ola bilər və iyerarxiyanın çöküşü ilə sonuclana bilər. Seçki ərəfəsində belə addım atmaq risklidir. Seçkidən sonra isə bir-sıra nazirlərin cəzalandırılacağı qaçılmazdır. Lakin bir neçə naziri cəzalandırsa Azərbaycanda vəziyyət müsbətə dəyişəcək.

Sistem dəyişilməyincə, çox ciddi siyasi, sosial və iqtisadi islahatlar aparılmayınca, Azərbaycanda köklü dəyişiyin ola biləcəyi ehtimalı böyük deyil.

**Bu gün yaranan vəziyyət 2005-ci ildə seçki ərəfəsində olan durumu xatırladır. O zaman birbaşa bu hakimiyyətə qarşı çıxan iki nazir və bir neçə məmur həbs olundu. Seçkidən dərhal sonra isə nazirin mühüm hissəsi yeniləşdi. Maliyyə, iqtisadi inkişaf, əmək və əhalinin sosial müdafiə, Gənclər və idman, mədəniyyət nazirləri, habelə Dövlət Neft Şirkətinin prezidenti dəyişdirildi. Bir sözlə, kifayət qədər komanda yeniləndi. Bu dəfə də eyni situasiya yaranmaqdadır. Vəziyyət anlaşılandır. Hakimiyyətə sistem böhranı baş verib. Odur ki, ehtimal edə bilərik ki, belə bir vəziyyətdə, yəni hakimiyyətdaxili mübarizənin getdiyi fonda bu və ya digər nazirləri vəzifəsindən uzaqlaşdırması asan deyil, lakin mühümdür. Odur ki, parlament seçkisindən dərhal sonra Nazirlər Kabinetinin tərkibində ciddi dəyişikliklərin ola biləcəyi ehtimalı heç də az deyil...**

## İqtisadi böhran xəbərdarlığı zənginləri təlaşa salıb

# Varlılar Bakıdan qaçır

**Neft bumunun faktiki başa çatmasının ardınca ölkədə ciddi şəkildə hiss edilməyə başlayan iqtisadi böhran və "oliqarxqeyt" adı alan Beynəlxalq Bank işində yüzlərlə iş adamın maliyyə baxımından çökməsi varlı təbəqəni çətin seçim qarşısında qoyub.**



### Paytaxtda brend mağazalar və digər obyektlər kütləvi şəkildə bağlanır; məmur-oliqarxlar yaxın imkanlı təbəqə panikadadır; onların bir çoxunun əmlakı girovdadır, amma əllərində olan pulları müxtəlif yollarla leqallaşdırıb təcili şəkildə ölkədən çıxartmağa başlayıblar; iqtidar da baş verənlərdən narahatdır...

Artıq bir neçə aydır ki, Bakıda əsasən varlılara məxsus brend mağazalar, iaşə obyektlərinin kütləvi şəkildə bağlanması müşahidə olunurdu ki, bu proses son günlər nəzərəçarpacaq həddə artıb. Paytaxtın Səməd Vurğun, Rəsul Rza, Zərifə Əliyeva, Üzeyir Hacıbəyli, Rəşid Behbudov, Şamil Əzizbəyov, Bülbül və Ceyhun Hacıbəyli kimi mərkəzi küçələrində fəaliyyət göstərən brend geyim mağazaları əsasən varlı təbəqə üçün idi. Bu obyektlərin rəhbərləri də elə ya oliqarxlar, ya da onlara yaxın adamlardır. Bu obyektlərin işıq və istilik sistemlərinin aylıq pulu, üç-dörd gözəgəlimli model satıcı qızın əməkhaqqısı üç-dörd ailənin aylıq gəlirinə bərabər olurdu. Amma bu mağazalar bağlanmırdı və həmin üç-dörd varlı müştərinin səbəbinə gəlirlə işləyirdi. İndi isə bir çox bu kimi mağazalar fəaliyyətini birdəfəlik dayandırıb. Yalnız bəzilərinin üzərində "icarəyə verilir" kimi elanları asılıb ki, bu da vergi müfəttişləri üçündür...

Müştəri qıtlığı və böhranla üzləşib fəaliyyətini dayandıran bu mağazaların sırasına hər gün yeniləri qoşulur. Siyahıda kafe, çayxana, optika və gözəllik salonları, toy təşkilatçılığı ilə məşğul olan şirkətlər, turizm şirkətləri də var. Əgər bir paytaxtın mərkəzi küçələrində profilindən asılı olmayaraq mağazalar bağlanırsa, müştəri qıtlığı yaranırsa, sadə əhali orta və aşağı təbəqələr üçün olan "tolkuçka"lara belə getməyə pul tapmırsa, orta təbəqə "əriyib" kasıblayırsa, varlılar iqtisadi təsirlərdən panikaya düşüb əlində olan var-dövləti xilas etmək üçün vurnuxursa, demək, ölkə böhrana doğru gedir. Böhranda isə kasıbın itirəcəyi heç nə yoxdur, varlıların isə...

Bu ilin may ayında "kredit oliqarxlarının" işi adı almış proses varlılar üçün əsl "qiyamət" oldu. Onların irili-xırdalı şirkətləri müflisləşdi, qapıları bağlandı, əmlaklarına həbs qoyuldu. Nəzarət səhmlərinin 51 faizi dövlətə məxsus olan Beynəlxalq Bankda kredit borclularının bir çoxunun bütün pulları əllərindən ya alındı, ya da onların əvəzinə verilmiş dəyərli yüz milyonlarla hesablanan əmlakları indi girovdadır.

Beynəlxalq Bank işi üzrə cinayət işi başlayanda məlum olub ki, milyardlarla dollar krediti oliqarxların bir çoxuna borc müqaviləsi imzalanmadan ayırılıb. Beynəlxalq Bankın rəhbərliyinin bu "səhvini" neçə vaxtdır müstəntiqlər düzəltməyə çalışır, borclulara yenidən girov müqavilələri bağlanır. Məlumatlara görə, təkcə Beynəlxalq Bankda deyil, "Bank Technique" də bir çox varlıların əmlakı girovdadır. Varlıların əksəriyyətinin adı kredit qalmaqalında keçdiyindən bu əmlakların təbii ki, alıcısı da yoxdur. Maraqlıdır ki, Türkiyə və Səudiyyə Ərəbistanı biznesmenlərinə bu əmlakları almaq təklif edilsə də, onlar da "batan varlılar"a kömək etmək istəməyiblər. Son aylar həm də məmur-oliqarxların da "sıxışdırılması" başlayıb, nəqliyyat naziri Ziya Məmmədovdan sonra daha bir neçə oliqarxın sıradan çıxarılacağı iddiası var. Bu da oliqarxlara yaxın varlıları daha da təlaşlandırıb.

**Heç kimə sirr deyil ki, oliqarxların bir çoxunun ailə üzvləri Bakıda yaşamır. Bəzilərinin övladları isə Avropa ölkələrində məskunlaşıb, vətəndaşlıq alıb, hətta özlərinə xudmani biznes də qurublar. Amma iş orasındadır ki, indi varlıların bəziləri Azərbaycanda qazandıqları hər şeyi faktiki itirmək həddindədirlər: əmlakları girovda, pulları təhlükədədir. Üstəlik, bir çoxuna ölkədən çıxmaq yasağı qoyulub.**

Hakimiyyətin rəsmi şəxslərinin açıqlamalarından çıxan nəticə budur ki, 2016-cı il çox çətin il olacaq. Bu vəziyyətdə isə çıxış yollarından biri ölkəni tərk etmək, bu krizisi daha rahat atlatmaqdır. Daha bir variant burada qazanılan qeyri-leqal pulu Azərbaycana yönəltmək, ya da birdəfəlik batmaqdır.

**Məlumata görə, varlılar indi əllərində olan pulları müxtəlif yollarla leqallaşdırıb təcili şəkildə ölkədən çıxartmağa başlayıblar. İqtidar da baş verənlərdən narahatdır. Banklara xüsusi tapşırıq verilib ki, külli-miqdarda pul köçürmələri şübhə doğurarsa, dərhal rəsmilər məlumatlandırılsın.**

❑ **"Yeni Müsavat"**

# Vergi cərimələri 5 dəfə artırılır

### Sadələşdirilmiş vergi dərəcələri də yüksəldilir

**Ticarət və ictimai iaşə fəaliyyətilə məşğul olan şəxslərin vergi hüquqpozmalarına görə maliyyə sanksiyalarının artırılması təklif olunur. Bunu vergilər naziri Fazil Məmmədov bu gün Milli Məclisin İqtisadi siyasət komitəsinin iclasında "Vergilər Məcəlləsinə dəyişikliklər edilməsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı bildirib.**



Onun sözlərinə görə, təqvim ili ərzində vergi hüquqpozulmasına birinci dəfə yol verildikdə 400 manat məbləğində maliyyə sanskiyası tətbiq olunurdusa, dəyişikliklə bu məbləğ 2 000 manat olacaq: "Təqvim ili ərzində ikinci dəfə hüquqpozulmasına yol verildikdə isə indiki kimi 800 manat deyil, 4 000 manatdək cərimə olunması təklif edilir. Belə hüquqpozulmasına üçüncü dəfə yol verildikdə isə cərimənin 1 200 manatdan 6 000 manat məbləğinə qədər qaldırılması təklif olunur".

Təklif olunan digər bir dəyişikliyə əsasən, Azərbaycanda ticarət və ictimai iaşə sahələrində çalışan sahibkarlar üçün sadələşdirilmiş vergi dərəcəsinin artırılması, idman mərc oyunlarında uduşlara 10% həcmində vergi tətbiqi nəzərdə tutulur.

**Nazir F.Məmmədov bildirib ki, üç ildir idman mərc oyunlarında əldə edilən uduşlar vergidən azad idi:** "Bu da həmin sahənin inkişafını stimullaşdırmışdı və üç ildə bu sahənin dövriyyəsi 300 milyon manatadək yüksəlib. Buna görə də hazırkı iqtisadi vəziyyətdə bu mənbənin vergiyə cəlb edilməsi əlverişli olacaq".

**Dəyişikliyə əsasən, sadələşdirilmiş verginin ticarət fəaliyyətilə məşğul olan sahibkarlar üçün dövriyyənin 6%-i, ictimai iaşə sahəsində fəaliyyət göstərən sahibkarlar üçünsə 8%-i səviyyəsində edilməsi təklif olunur.**

YENİ MÜSAVAT
N 230 (6258) 17 oktyabr 2015



# "Bu seçkilərdə hədəfimiz hakimiyyəti dəyişdirmək deyil"

## Arif Hacılı: "Azərbaycan hakimiyyətinin apardığı bu siyasətin sonu yaxınlaşır"

**Müsavat Partiyasının başqanı Arif Hacılı musavat.com-a müsahibə verib. Müsahibədə o, partiyanın seçki hazırlığından, seçki mühitindən, həmçinin seçkidən sonrakı gözləntilərdən danışıb.**

***- Müsavat Partiyası seçkiyə necə hazırlaşır? Problemlər çoxdurmu?***

- Müsavat Partiyası strukturlarında seçki işini mükəmməl bilən, seçki sahəsində mütəxəssis olan çoxlu adamlar var. Seçki kampaniyasında əsas işi bu adamlar aparır. Təbii ki, çətinliklərimiz həddindən artıq çoxdur. Çətinliklərimiz ilk növbədə Azərbaycan hakimiyyətinin yaratdığı problemlərlə bağlıdır. Çünki ölkədə normal seçkiqabağı demokratik şərait yoxdur, standartlara cavab verən qanunvericilik bazası, bərabər təbliğat imkanları yoxdur. Seçki kampaniyası aparılması üçün dövlət büdcəsindən maliyyə vəsaiti ayrılmır. Seçicilərlə görüşlər üçün ayrılan yerlər əsasən uğursuz məkanlardır. Belə problemlərin mövcudluğu təbii ki, işimizi çətinləşdirir. Amma Müsavat Partiyası hal-hazırda namizədlərinin qeydə alındığı 24 seçki dairəsi üzrə seçki kampaniyası təşkil edir. Təşviqat materialları bəzi dairələrdə artıq hazırdır. Eyni zamanda, seçicilərlə təmaslar, görüşlər keçirilir.

***- 24 namizəd Müsavat kimi bir partiya üçün kiçik rəqəmdir. Niyə belə az?***

- Bu, hakimiyyətin qeyri-qanuni siyasətinin nəticəsidir. Biz 70-dən artıq dairədə namizədlərimizi irəli sürdük. Namizədlərin hamısı qanunvericilikdə nəzərdə tutulan saydan daha artıq imzaları toplayaraq seçki dairələrinə təqdim etdilər. Ancaq müxtəlif bəhanələrlə, xüsusilə guya imza verən şəxslərin imtina ərizələrini almaq, guya bu müddət ərzində seçicilərin dislokasiya yerinin dəyişməsi və başqa gülünc iddialarla namizədlərin əksəriyyətini qeydə almadılar. Yalnız 24 namizədimiz qeydə alındı.

***- Müsavat namizədlər üçün pulsuz efir vaxtı tələb edir. Tələbiniz cavablandırıldımı?***

- Pulsuz efir vaxtı seçki kampaniyası üçün ən vacib məsələlərdən biridir. Çünki ictimai diskusiyalar olmadan seçki kampaniyası mümkün deyil. Bərabərhüquqlu təbliğat imkanları prinsipinin əsas şərtlərindən biri məhz ictimai diskussiyaların təşkil olunmasıdır. Azərbaycanın son tarixində ilk dəfə Azərbaycan hakimiyyəti bu seçkilərdə ümumiyyətlə efir vaxtını qadağan etmək qərarına gəldi. Xatırladıram ki, hətta 1990-91-ci illərdə, 92-ci ilin prezident seçkilərində, ondan sonrakı dövrlərdə həmişə televiziyalarda çıxışlar, debatlar təşkil olunub. Bütün dünyada seçki debatlarının, televiziya çıxışlarının təşkil olunması və bunun üçün pulsuz efir vaxtının ayrılması tamamilə aydın və inkarı qeyri-mümkün olan bir məsələdir. Ancaq Azərbaycan hakimiyyəti bu dəfə efir vaxtı ayırmaqdan imtina edir. Biz yenə də Mərkəzi Seçki Komissiyasına müraciət etmişik və bu yanlışlığın aradan qaldırılmasını Azərbaycan hakimiyyətindən qətiyyətlə tələb edirik. Bu gün mənim MSK sədri Məzahir Pənahova müraciətim göndərilib. Bu müraciətdə israrla seçki kampaniyası dövründə ictimai diskussiyaların təşkil olunması və İctimai televiziyada pulsuz efir vaxtının ayrılması tələb olunur.

***- Bu seçki ərəfəsində də Seçki Məcəlləsində dəyişikliklər olmadı, normal seçki keçirilməsi üçün hakimiyyətin siyasi iradəsi də ortada yoxdur. Əhalinin aktivliyi də müşahidə olunmur. Müsavat Partiyası nəyə ümid edir?***

- Biz bu seçkilərdə hədəfimiz parlament çoxluğu əldə etmək və ya hakimiyyəti dəyişdirmək deyil. İndiki siyasi vəziyyət buna imkan vermir. Biz siyasi mübarizənin davamlılığının təmin olunması, Azərbaycan cəmiyyətinin mübarizə gücünün qorunub saxlanması və artırılması məqsədi ilə seçki kampaniyasına qoşulmuşuq. Azərbaycan cəmiyyəti görməlidir ki, Azərbaycanda mövcud avtoritar rejimə qarşı mübarizə aparan siyasi qüvvələr var. Sadəcə olaraq Azərbaycan hakimiyyətinin zorakılığı, atdığı qeyri-qanuni addımlar bu müqavimətin real nəticələrinin olmasına imkan vermir. Eyni zamanda, bu seçki kampaniyasında iştirak etməklə Azərbaycan hakimiyyətinin hansı miqyasda saxtakarlıqlara və qanun pozuntularına yol verdiyini həm Azərbaycan ictimaiyyəti, həm beynəlxalq ictimaiyyət üçün açıqlayacağıq. Müsavat Partiyası kimi, NİDA, REAL kimi təşkilatlar, bəzi müstəqil namizədlər seçkilərdə iştirak etməsəydi, hakimiyyətin xüsusi saxtakarlıqlara, qanun pozuntularına yol verməsinə ehtiyac da qalmayacaqdı. 2008-ci ilin prezident seçkilərindən sonra demək olar ki, əksər beynəlxalq təşkilatlar bu seçkilərin nəticələrini müsbət dəyərləndirdi. Hətta bəzi yerli təşkilatlar da bildirirdilər ki, seçkilərdə iştirak edənlərin əksəriyyəti İlham Əliyevə səs verib. Çünki həmin seçkilərdə hər hansı real alternativ yox idi və prezident hakimiyyətinin faktiki olaraq beş il uzadılmasına müqavimət göstərilmədi. Mən hesab edirəm ki, biz o seçkilərdə iştirak etməklə nələrəsə nail ola bilərdik. Eyni zamanda, Azərbaycan cəmiyyətinin müqavimət gücünün qorunub saxlanması və artırılması məhz siyasi prosesdə iştirakdan keçir. Seçkilərin boykot edilməsi də siyasi bir aksiyadır və geniş yayılmış aksiyadır. Dünya praktikasında da belə hallar var. Ancaq seçkilərin boykot edilməsi seçki prosesindən kənarda dayanmaqla olmur. Seçki prosesinin boykot edilməsi o deməkdir ki, seçkilərin azad və ədalətli keçirilməsinin qarşısını almaq üçün hər hansı bir mübarizə təşkil olunur, seçki qanunvericiliyində dəyişikliklərin olmasına, seçkiqabağı mühitin yaxşılaşdırılmasına heç olmasa cəhd edilir. Məsələn, 1998-ci ildə bizim prezident seçkilərini boykot etməyimizi o zaman da, səhv addım hesab edirdim. Bu gün də fikrim dəyişməyib. Ancaq hər halda, 98-ci ildə biz ölkədə mövcud olan siyasi vəziyyəti dəyişdirməyə cəhd göstərdik. Müəyyən dəyişikliklərə nail olduq. Sərbəst toplaşmaq azadlığının genişlənməsi istiqamətində müəyyən addımlar atıldı, şəhərin bir sıra meydanlarında kütləvi aksiyalar keçirildi, şəhərin mərkəzi küçələrində yürüşlər təşkil etdik. Qanunvericilikdə müəyyən islahatlara nail olundu. O vaxt bu addımları atmaq üçün həm cəmiyyətin müqavimət gücü daha artıq idi, həm də müxalifətin resursları indi olduğundan daha çoxdur. Biz bu gün belə böyük bir hərəkatı təşkil olunması yolu ilə seçkilərin boykot edilməsinin qeyri-mümkün olduğunu bilirik və seçkiləri boykot edən təşkilatlar da bu istiqamətdə hər hansı uğurlarının, hətta bu istiqamətdə cəhdlərinin də şahidi olmuruq. Ona görə də indiki siyasi şəraitdə seçkiləri boykot etmək faktiki olaraq özünü siyasi prosesdən kənara qoymaq anlamına gəlir. Bu da uğurlu yol deyil. Ona görə də Müsavat Partiyası seçkilərdə iştirak qərarını qəbul edib. Bu, indiki şəraitdə ən qərardır. Ancaq biz seçki prosesindən çıxmaq ehtimalını da istisna etmirik. Seçki prosesinin hansısa mərhələsində Müsavat Partiyasının seçki prosesindən çıxması mümkündür.

***- Bu, hansı mərhələdə ola bilər?***

- Bilavasitə seçki günü ərəfəsində bu məsələ Müsavat Partiyası strukturlarında bu məsələ bir daha müzakirə olunacaq.

***- Əksər ekspertlər bu seçkiləri ölkə tarixində ən sönük seçki prosesi kimi dəyərləndirirlər. Sizin seçkidən sonrakı vəziyyətlə bağlı proqnozlarınız necədir?***

- Əgər ölkədə ciddi müqavimət təşkil olunmasa, Azərbaycan cəmiyyəti mövcud siyasi vəziyyəti dəyişdirmək üçün özündə təpər tapmasa, gələcək haqqında müsbət proqnozlar vermək çətindir. Çünki Azərbaycan hakimiyyəti artıq bütün tabuları aradan qaldırıb. Əvvəllər qadınlar təqib olunmurdu, indi siyasətlə məşğul olan xanımlar həbs edilir, əvvəllər siyasətçilərin yaxınlarına, qohumlarına toxunmurdular, indi əksinə, xüsusilə xaricdə olan siyasi xadimlərin, jurnalistlərin, siyasi fəalların yaxınlarına, qohumlarına qarşı repressiya kampaniyası başlayıb. Belə görünür ki, hakimiyyət dayanmaq fikrində deyil. Hakimiyyət hətta mümkün olsa, Azərbaycanda Şimali Koreyada olduğu kimi cəmiyyət qurmağa qədər getməyə hazır olduğunu nümayiş etdirir. Sadəcə olaraq, Azərbaycan cəmiyyəti, ilk növbədə Azərbaycanda fəaliyyət göstərən siyasi qüvvələr, ictimai təşkilatlar, jurnalistlər, ziyalılar, azad fikirli gənclər Azərbaycanın gələcəyini düşünən hər kəs Azərbaycan hakimiyyətinin bu siyasətini durdurmaq üçün özündə təpər tapıb fədakar mübarizəyə qalxmalıdır. Düşünürəm ki, Azərbaycan cəmiyyəti bunu edəcək. Çünki Azərbaycan cəmiyyəti öz inkişaf səviyyəsinə görə nəinki Şimali Koreya cəmiyyətindən, hətta Misir, Belorus, Ermənistan cəmiyyətindən xeyli fərqlənir. Öz inkişaf səviyyəsinə görə Azərbaycan cəmiyyəti təqribən Gürcüstan, Ukrayna cəmiyyətlərinin səviyyəsinə yaxındır. Bəlkə onlardan daha üstündür. Ona görə də hesab edirəm ki, Azərbaycan hakimiyyətinin apardığı bu siyasətin sonu yaxınlaşır.

***- Beynəlxalq təşkilatlar Azərbaycanla bağlı sərt bəyanatlar verirlər. Məsələn, Avropa Parlamenti sentyabr ayında Azərbaycanla bağlı sərt qətnamə qəbul etdi. Ancaq ölkə başçısı dedi ki, bu, kağız parçasıdır. Sizcə, bu təpkilər ancaq bəyanat şəklində qalır?***

- Azərbaycan hakimiyyətinin daxili, həm də xarici siyasəti bütövlükdə Azərbaycanın təcrid olunmasına gətirib çıxarıb. Bu siyasət təkcə hakimiyyətə yox, Azərbaycana ağır zərbə vurur. Təəssüf ki, Azərbaycan hakimiyyəti apardığı bu siyasətlə yalnız özünü yox, Azərbaycanı da uçuruma aparır. Bu siyasət durdurulmalıdır. Beynəlxalq birliyin qəbul etdiyi sənədləri kağız parçası hesab etmək olmaz. Bu, yanlışdır, səhvdir. Azərbaycan problemlər içində yaşayan bir ölkədir. Azərbaycan çox mürəkkəb geopolitik məkanda yerləşən bir ölkədir. Buna görə Azərbaycan hakimiyyətinin bu ritorikası ölkənin milli təhlükəsizliyi üçün ciddi təhdiddir və bu siyasət bütövlükdə dəyişməlidir.

***- 2003-cü ilin 15 oktyabrından 12 il keçir. 12 ildən sonra necə düşünürsünüz, o zaman hakimiyyətə gəlməyiniz niyə mümkün olmadı?***

- O vaxt Azərbaycan cəmiyyətinin müqavimət gücü indi olduğundan xeyli artıq idi. Ancaq bu güc istər yerli hakimiyyətin zorakılığını, eyni zamanda, beynəlxalq birliyin Əliyevlər rejimini dəstəyini üstələyərək qalib gəlmək üçün yetərli olmadı.

***- Siz həbsinizlə bağlı Avropa Məhkəməsinə müraciət etmişdiniz. Nəticə necə oldu?***

- 2003-cü il oktyabr hadisələrindən sonra qanunsuz həbsimlə bağlı Avropa Məhkəməsinə müraciət etmişdim. Mənim bu iddiam Avropa Məhkəməsi tərəfindən təmin edilib. Azərbaycanda 16 oktyabrla bağlı məhkəmənin yenidən keçirilməsi barədə qərar qəbul olunub, eyni zamanda, təzminat ödənilməsi barədə qərar çıxarılıb.

❑ Röya RƏFİYEVA
Foto: YM



**"Öz inkişaf səviyyəsinə görə Azərbaycan cəmiyyəti təqribən Gürcüstan, Ukrayna cəmiyyətlərinin səviyyəsinə yaxındır"**

**"Azərbaycan cəmiyyəti mövcud siyasi vəziyyəti dəyişdirmək üçün özündə təpər tapmasa, gələcək haqqında müsbət proqnozlar vermək çətindir"**

# 1 noyabr 2015-ci ildə keçiriləcək Parlament seçkilərində Ümid Partiyasının namizədlərinə səs verin!




### 1 NOYABR 2015-Cİ İLDƏ KEÇİRİLƏCƏK PARLAMENT SEÇKİLƏRİNDƏ 59 SAYLI SALYAN SEÇKİ DAİRƏSİNDƏN ÜMİD PARTİYASININ DEPUTATLIĞA NAMİZƏDİ RÜFƏT HABİL OĞLU MURADLI

1971-ci ildə Salyan şəhərində anadan olmuşdur. 1987-ci ildə Salyan şəhər 4 saylı orta məktəbi bitirdikdən sonra Bakı Maliyyə-Kredit Texnikumunun Hüquqşünaslıq ixtisasına daxil olmuş, 1990-cı ilədək orada təhsil almışdır. Həmin ildən Salyanda hüquq məsləhətçisi kimi fəaliyyət göstərmiş və eyni zamanda müstəqillik uğrunda gedən Xalq Hərəkatında da yaxından iştirak etmişdir.

1992-ci ilin iyulunda AXC sıralarından istefa verən Rüfət Muradlı həmin il Məhəmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin Hüquq Fakültəsinə daxil olmuş, 1992-97-ci illərdə orada təhsil almışdır.

1999-2012-ci illərdə Güney Azərbaycanda mühacirət həyatı yaşamışdır. Bu müddətdə o, televiziya aparıcısı və redaktor kimi çalışmışdır. Həmin dönəmdə Güney Azərbaycanda milli-mədəni mübarizə aparan fəallarla yaxından tanış olan Rüfət Muradlı bu prosesin iştirakçısı da olmuşdur. Rüfət Muradlı 2012-ci ildə Azərbaycana dönərək aktiv siyasi fəaliyyətə başlayır. Əvvəllər də üzvü olduğu Ümid Partiyasında Xaricdə yaşayan soydaşlarımızla iş üzrə sədr müavini təyin edilən Rüfət Muradlı əsas fəaliyyətini Güney Azərbaycanda soydaşlarımızın apardığı mübarizəyə yardım istiqamətində quraraq dünyaya səpələnən 50 milyona yaxın soydaşımızla bağlı aktiv fəaliyyətə başlayır. 2014-cü ilin iyununda Ümid Partiyasının İctimaiyyətlə əlaqələr və Xaricdə yaşayan soydaşlarımızla iş üzrə sədr müavini təyin olunduqdan sonra da Rüfət Muradlı Dünya Azərbaycanlıları ilə bağlı çalışmalarına davam etməkdədir. Hal hazırda o, Borçalı Cəmiyyətinin sədr müavini, Bütöv Azərbaycan Ocaqları MŞ-nın üzvü, eləcə də 125-lər Siyasi Klubunun təsisçilərindəndir. Jurnalist kimi də fəaliyyətinə davam edən Rüfət Muradlı Kanal13 televiziyasından yayımlanan SOYDAŞ proqramının yaradıcısıdır. Bir neçə xarici dil bilir.

# Sizinləyəm...

*Sizlərə səslənib deyirik, kimsəni düşməm elan etməyən, heç bir Azərbaycanlını keçmişinə, siyasi mənsubiyyətinə, dini baxışlarına, milli tərkibinə görə çeşidlərə bölməyən düşüncə sahibləriyik.*

*Biz bir Ümid qapısıyıq. Dəyişin ki, o Ümid qapısı Azərbaycanımızın üzünə açılsın. Açdığınız qapıda hər birinizi səadət və güvən, sevgi və məhəbbət, firavanlıq və xoşbəxtlik gözləyir!*




### 1 NOYABR 2015-Cİ İLDƏ KEÇİRİLƏCƏK PARLAMENT SEÇKİLƏRİNDƏ 41 SAYLI SUMQAYIT BİRİNCİ SEÇKİ DAİRƏSİNDƏN ÜMİD PARTİYASININ DEPUTATLIĞA NAMİZƏDİ ABBASLI HƏCƏR ŞAMİL QIZI

1989-cu il 15 iyunda Kəlbəcər rayonunun Bağırlı kəndində anadan olub. Kəlbəcər rayonu işğal olunduqdan sonra Sumqayıt şəhərində yaşayır. Şəhərin ictimai, mədəni və siyasi həyatında aktiv iştirak edib. Bir sıra diplom, təşəkkürnamə və sertifikatlarla təltif olunub. 2013-cü ildə Bakı Dövlət Universitetini bitirib. BDU-da oxuduğu illərdə yüksək tədris göstəricisinə görə "İlin tələbəsi" fəxri adına layiq görülüb. Bir müddət jurnalist fəaliyyəti ilə məşğul olub. Həmçinin Avropa Diplomatiya Akademiyasının məzunudur. Azərbaycanı bir sıra beynəlxalq tədbirlərdə, konfranslarda eyni zamanda Cənubi Qafqazda gənc siyasətçilərinin III forumunda təmsil edib. Hazırda Ümid partiyasında Gender Bərabərliyi şöbəsinin müdiri vəzifəsində çalışır. Həmçinin Partiyanın ən gənc xanım namizədidir.

Bir neçə xarici dil bilir. Subaydır.




### 1 NOYABR 2015-Cİ İLDƏ KEÇİRİLƏCƏK PARLAMENT SEÇKİLƏRİNDƏ 32 SAYLI SURAXANI ÜÇÜNCÜ SEÇKİ DAİRƏSİNDƏN ÜMİD PARTİYASININ DEPUTATLIĞA NAMİZƏDİ ƏLİYEV NAMİQ ZAKİR OĞLU

1985-ci ildə Qazaxıstan Respublikasının Uralski şəhərində anadan olub.

2003-cü ildə Cəlilabad Rayon Göytəpə şəhər V.Hüseynov adına 2 saylı orta məktəbi bitirib.

2008-2009-cu illərdə hərbi xidmətdə olub.

Ali təhsillidir. 2012-ci ildə Azərbaycan Texniki Universitetini bitirib.

2003-2005- ci illərdə Azpetrol şirkətində kassir vəzifəsində çalışıb.

Hazırda Ümid Partiyasında şöbə müdiridir.




### 1 NOYABR 2015-Cİ İLDƏ KEÇİRİLƏCƏK PARLAMENT SEÇKİLƏRİNDƏ 31 SAYLI SURAXANI ÜÇÜNCÜ SEÇKİ DAİRƏSİNDƏN ÜMİD PARTİYASININ DEPUTATLIĞA NAMİZƏDİ TAĞIZADƏ RƏFAİL ALI OĞLU

11 fevral 1958-ci ildə Ağdam rayonunda anadan olub.

1974-1979-cu illərdə Azərbaycan Politexnik İnstitutunda (indiki Texniki Universitet) təhsil alıb.

İxtisasca mühəndis-sistemotexnikdir.

Elektron Hesablayıcı Maşınları zavodunda müxtəlif vəzifələrdə çalışıb.

2002-ci ildən siyasi fəaliyyətini Ümid Partiyası ilə başlayıb.

Hal-hazırda Ümid Partiyası Ali Məclisinin sədridir.

1994-1996-cı illərdə Azərbaycan Milli Ordusunda, döyüş bölgəsində zabit kimi qulluq edən Rəfail Tağızadə xidmətdə olduğu dövrdə Ordu Birləşməsi Komandanlığı tərəfindən "Şah İsmayıl Xətai adına" Fəxri Fərmanla və qiymətli hədiyyələrlə təltif olunub.

Rəfail Tağızadə eyni zamanda Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Onun "Qapı"(2004), "Qarabağ rüzgarları" (2009) və "Gecə xəyalları" (2013) şeirlər kitabı işıq üzü görüb.

Dünyanın çağdaş avanqard şairlərinin şeirlərini dilimizə tərcümə edən Rəfail Tağızadə əsasən polyak poeziyasının tərcüməçisi kimi tanınır. "Qəfil görüş" (Çağdaş polyak şeir antologiyası) (2010) kitabının həmmüəllifidir. Yaxın vaxtlarda "Şairlər eyni dildə danışırlar" (Çağdaş polyak şairləri) tərcümə kitabı çap olunacaq.

Rəfail Tağızadə "Qarabağ Qazisi haqqında ballada" poemasına görə Beynəlxalq Rəsul Rza mükafatı laureatıdır (2006).

O, 2011-ci ildə ədəbi yaradıcılığındakı nailiyyətlərinə görə Prezident təqaüdçüsü olub.

Rəfail Tağızadə Şopenin 200 illiyi ilə əlaqədar olaraq "Şopenin ürəyi" poemasına görə Polşanın Mədəniyyət və Mədəni İrs naziri tərəfindən xüsusi Diploma layiq görülüb.

Şeirləri türk, rus, inglis, polyak, italyan dillərinə tərcümə olunub.

Rəfail Tağızadə siyasi fəaliyyətlə yanaşı vətəndaş cəmiyyəti sektorunda da ciddi işlər görür. Belə ki, o Mədəniyyətlərin İnteqrasiyası Mərkəzi İB-nin sədridir.

Ailəlidir. İki övladı və iki nəvəsi var.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Xortdanlar və zombilər

Zamin HACI
zaminhaci@gmail.com

**Yayda məhəllədən keçəndə gördüm uşaqlar qəribə bir oyun oynayırlar. Biri əlini qabağa uzadıb sərsəm-sərsəm addımlar ataraq o biri uşaqları qovalayır, arada da "Zombi, zombi" deyə çığırışırlar. Hansı uşağı tutsa bunu yüngülvari dişləyir. Sonra həmin uşaq da başlayır buna qoşulub başqalarını qovalamağa. Beləcə, oyun davam edirdi, uşaqlar isə hiss olunurdu yüksək zövq alırlar.**

Fikirləşdim, yəqin bunlar hansısa zombilər, zombi-vampirlər mövzusunda kinolara, animasiyaya baxıblar, ya da indi internetdə zombi oyunları var. Ancaq adam uşaq olanda hər cür səfeh oyun çıxarır, məsələn, biz balaca olanda hər gün "bizimkilər" "nemeslərin" anasını ağladırdı, heç ağlımıza gəlməzdi üstündən 40 il keçəcək, eyni səfehliyi AzTV ekranında yekəqarın kişi xeylaqlarının ifasında görəcəyik. Buna görə uşaqların "zombi-zombi" oynamağı yadımdan çıxdı getdi, ta dünənə qədər. Dünən qəzetdə elə bir yazı oxudum, barmağımı dişlədim *(həm də özümün zombi olub-olmadığımı yoxlamaq üçün).*

Yazıblar ki, Bakı şəhərində, Nərimanov rayonunda bir kişinin restoranı varmış. 2000-ci ildə bu kişi yol qəzasında ölüb, 3 uşağı qalıb. Uşaqlar həmin restoranı icarəyə verib birtəhər dolanırmış. 2009-cu ildə isə yapistlər "abadlıq" adıyla restoranı dağıdıblar, ancaq yetimlərə bir qəpik də kompensasiya verilməyib. Şikayət ediblər, ancaq məhkəmə hakimləri qərar çıxarıb ki, gərək... restoranın yiyəsi - 15 il qabaq ölən adam da gəlsin ifadə versin. Bu unikal qərarı imzalayan hakimlərin adını da bir daha yazaq, tarixə düşsünlər: Bakı Apelyasiya Məhkəməsindən Nurəddin Mustafayev, Kəmalə Abıyeva, Mirzə Tağızadə, Ali Məhkəmədən isə Sevda Hüseynova.

Ölünü dindirmək istəyən bu hakimlər haqlıdır məncə. Biz hamımız zombilərik, içi bu hakimlər qarışıq. Əlimizi qabağa uzadıb yeriyirik, lakin hara getdiyimizi, həyatda məqsədimizin nə olduğunu, nə üçün yaşadığımızı bilmirik. Pardon, əslində biz yaşaya da bilmərik, çünki ölmüşük. Zombilər dirilmiş ölülərdir. Milli mentalitetimizə uyğun yazsaq, xortdanlar. Hər sahədə olduğu kimi xortdan sahəsində da gül kimi milli sözümüzü xarici təsirə satmışıq gedib, alçaq qərblilərin dəyirmanına su axıtmışıq. Sabir Rüstəmxanlı müəllim gəlib bu xortdan-zombi temasında bir soy soylayıb, boy boylasa, uca millətimiz məmnun olardı. Hətta yaxşı olardı Cəmil müəllim də "Anarın əsərlərində xortdanların ifşası milli kimliyimizin ana həqiqətinin təcəssümü kimi" adlı məqalə yazsın.

Qayıdaq öz zombilərimizin yanına, başqa yerə getməyə imkan da yoxdur. Azərbaycanda bütün sahələr üzrə zombilər yetişdirilir. Məsələn, təhsil zombiləri, səhiyyə zombiləri, jurnalist-zombilər, zombi-hüquq-mühafizə qüvvələri, Çevik Zombi Alayı (ÇZA), Azərbaycan Zombi Yazarlar Birliyi (AZYB), "Zombilər zombisi" şadlıq sarayı və sairə. Bunlar hamısı bir-birini gəmirə-gəmirə asudə yaşayırlar, sabitlik hökm sürür, Suriyaya-zada nisbətən bizdə heç kim ölmür. Ölüyük axı, zombini necə öldürəsən? Ölüb təzədən dirilirik. Zombi-səməndərlərik biz! Bəlkə bu ölü məhəbbətinə görə ən yaxşı bədii əsərimiz "Ölülər" adlanır. Şairlər ancaq ölüm mövzusunda vızıldaşırlar. Ölü yerinə getmək hər bir zombi üçün vacib əməl sayılır, hər məhlədə uşaq oyun yerində bir ölüxana tikilir. Ziyalı-zombilərimiz təklif edir ki, respublikanın adını dəyişib Azombiycan qoyaq.

Zombi əhvalatının tarixinə görə haçansa Haiti adasında bir cadugər var imiş, camaata bir meyvənin şirəsini nə iləsə qatışdırıb verirmiş, həmin adamlar hissiyyatsız, şüursuz, yaddaşsız qullara çevrilirmiş. Sonra həmin qulları öz şəkər qamışı plantasiyasında işlədirmiş. İndi bizim dükanlarda satılan meyvə şirələri də həmin cadugərin resepti ilə hazırlanır. İçirik, zombiyə dönürük.

**Hərçənd, anadan zombi doğulan zəhmətkeşlərimiz də vardır, onlar lap xoşbəxtdir! Onlar heç vaxt nəyisə fikirləşib dərd çəkməmişdir.**

# "Rüşvətxor məmurlar cəzalandırılmalıdır"

**Korrupsiyaya qurşanmış məmurlar ciddi şəkildə cəzalandırılmalıdır. Bunu Trend-ə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, millət vəkili Azay Quliyev Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında korrupsiya və rüşvətxorluqla bağlı dediklərinə münasibət bildirərkən deyib.**

**Onun sözlərinə görə, Prezident İlham Əliyevin bu çıxışı geniş ictimai rezonans doğurub.**

Deputat "ASAN xidmət"in Azərbaycanın korrupsiya ilə mübarizədə ən böyük uğuru olduğunu və rüşvətin tam aradan qaldırılması üçün istiqamətlərin müəyyənləşdiyini



Azay Quliyev

qeyd edib: "Birinci istiqamət struktur islahatlarıdır. Yəni istiqamət elə qurulmalıdır ki, artıq korrupsiya özü faktiki olmasın. Bunun da ən bariz nümunəsi "ASAN xidmət"in yaradılmasıdır. Bilirsiniz ki, "ASAN xidmət" öz funksiyasını çox uğurla həyata keçirir. Burada korrupsiya sıfır dərəcəsindədir. Korrupsiyaya qarşı elə bir qayda tətbiq olunub ki, orada rüşvətin mövcud olması mümkün deyil".

Korrupsiyaya qarşı mübarizə ilə bağlı hüquq-mühafizə orqanlarının ciddi addımlar atdığını deyən A.Quliyev bildirib ki, Prezident İlham Əliyevin dediyi kimi, islahatlar davam etdirilməlidir: "Korrupsiyanı yerli-dibli yox etmək üçün islahatlar davamlı olmalıdır. Artıq bir sıra hüquq-mühafizə orqanları bu istiqamətdə əməli işə keçiblər. Baş Prokurorluq, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi də bununla bağlı mühüm tədbirlər həyata keçirir".

**Xatırladaq ki, oktyabrın 12-də Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib. İclasda Prezident İlham Əliyev geniş nitq söyləyərək bəzi qurumları sərt tənqid edib.**

# Müsavatın namizədlərinin sayı 25-ə çatdı

## Seçkini 19 beynəlxalq qurumun müşahidə edəcəyi açıqlandı

**Oktyabrın 16-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib. Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən "Yeni Müsavat"a verilən xəbərə görə, iclasda əvvəlcə Komissiyanın 8 oktyabr və 9 oktyabr 2015-ci il tarixində keçirilmiş iclaslarının protokolları təsdiq edilib.**



Sonra 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Ümid Partiyası tərəfindən təqdim olunmuş səlahiyyətli nümayəndələrin qeydə alınması məsələsinə baxılıb. Komissiya üzvlərinin müzakirəsindən sonra sözügedən partiya tərəfindən təqdim olunmuş şəxslər səlahiyyətli nümayəndələr kimi qeydə alınıb.

İclasda MSK-nın qərarı ilə bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində də dəyişiklik edilib.

Komissiyanın iclasında seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə də baxılıb. Komissiya üzvlərinin müzakirəsindən sonra müraciətlərlə bağlı müvafiq qərarlar qəbul edilib. Belə ki, MSK 73 saylı Lənkəran şəhər Seçki Dairəsindən öz təşəbbüsü ilə namizədliyi irəli sürülmüş Bəxtiyar Ağazadə, 35 Xətai III Seçki Dairəsindən Müsavat Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Mübariz Salayevin namizədliklərinin müvafiq dairə seçki komissiyaları (DSK) tərəfindən qeydə alınmaması barədə şikayətlərini əsassız sayıb, DSK-ların qərarlarını qüvvədə saxlayıb. Qeyd edək ki, MSK 35 Xətai III Seçki Dairəsindən Müsavat Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Mübariz Salayevin namizədliyinin qeydə alınmaması barədə müvafiq DSK-nın qərarından şikayətinə ikinci dəfə baxıb. Bundan əvvəl DSK-nın qərarında M. Salayevin Müsavat Partiyasının deyil, mövcud olmayan Yeni Müsavat Partiyası tərəfindən namizədliyinin irəli sürüldüyü qeyd olunduğu üçün MSK DSK-nın qərarını ləğv edib, yenidən baxılması üçün DSK-ya göndərmişdi.

İclasda MSK 89 saylı Göyçay-Ağdaş Seçki Dairəsindən Müsavat Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Mahmud Hacılının namizədliyinin müvafiq dairə seçki komissiyası (DSK) tərəfindən qeydə alınmaması barədə şikayətini əsaslı sayıb, DSK-nın qərarını ləğv edib, M. Hacılının namizədliyi qeydə alınıb.

İclasda 123 saylı Kəlbəcər Seçki Dairəsindən Müsavat Partiyası tərəfindən namizədliyi irəli sürülmüş və qeydə alınmış İsgəndər Həmidovun şikayətinə də baxılıb. MSK üzvü Validə Kazımova bildirib ki, İ. Həmidov müraciətində təşviqat aparılmasına imkan yaradılmamasından şikayət edib. O, seçicilərlə görüş keçirməsinə polis əməkdaşlarının mane olduğunu bildirib.

MSK müraciəti baxılması üçün 123 saylı Kəlbəcər Dairə Seçki Komissiyasına göndərib.

MSK sədri M. Pənahov məcburi köçkünlərlə bağlı seçki dairələrinin seçicilərinin bir seçki dairəsinin ərazisində və ya bir yaşayış məntəqəsində yaşamadığını söyləyib. O deyib ki, ən düzgün yol o olar ki, MSK dairə seçki komissiyalarına müraciət etsin, məcburi köçkünlərlə bağlı namizədlərin təşviqatı üçün yerlər ayırsın: "Yeni məcburi köçkünlər müxtəlif yaşayış məntəqələrində, müxtəlif seçki dairələrinin ərazilərində məskunlaşıbsa, deməli, digər seçki dairələri belə hallarda təşviqat üçün həmin namizədlərə yer ayırmalıdır. Əslində bir seçki dairəsində həmin dairənin namizədləri üçün təşviqatla bağlı yer ayrılıbsa, məcburi köçkünlərlə bağlı dairədən namizəd olanlar da o yerlərdə görüşlər keçirə bilərlər. Bu sahədə problem ortaya çıxsa, bunu müzakirə edə bilərik. Ümumiyyətlə, maksimum dərəcədə çalışmaq lazımdır ki, namizədlərin seçicilərlə görüşü, təşviqatı üçün şərait yaradılsın, məsələ namizədin xeyrinə həll olunsun, namizədin görüşləri əngəllənməsin".

İclasda M.Pənahov məlumat verib ki, noyabrın 1-də keçiriləcək seçkilərlə əlaqədar dairə seçki komissiyalarında 7 min 79 müşahidəçi, Mərkəzi Seçki Komissiyasında isə 605 müşahidəçi qeydiyyatdan keçib.

**M.Pənahov həmçinin qeyd edib ki, indiyədək Milli Məclisə seçkilərlə bağlı 19 beynəlxalq qurumdan 222 müşahidəçi qeydiyyatdan keçib.**

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 230 (6258) 17 oktyabr 2015

# Azərbaycanı ABŞ üçün vazkeçilməz edən səbəblər...

## Qabil Hüseynli: "ABŞ xeyli yumşalıb..."

**Hazırda Əfqanıstandakı olan ABŞ qüvvələri gələn il də bu ölkədən çıxarılmayacaq. ABŞ prezidenti Barak Obama Ağ Evdəki çıxışı zamanı bu barədə açıqlamalar verib. O, səbəb kimi, "Taliban"ın ölkədə yenidən yeni silahlı qüvvə ilə ortaya çıxırıb.**

Obama hakimiyyəti tərk etdiyi zaman Əfqanıstandakı 9800 nəfərlik Amerika hərbi qüvvəsinin 5500-ə endiriləcəyini bildirib. Xatırladaq ki, ötən il Obama 2016-cı ilin sonlarına qədər ABŞ qüvvələrinin Əfqanıstandan çıxarılacağını, yalnız 1000 nəfərin Amerikanın bu ölkədəki səfirinin mühafizəçisi qismində saxlanılacağını bildirmişdi. Deyilənlərin onu deməyə əsas verir ki, yaxın bir neçə ildə də Amerika qoşunları bu ölkədə qalacaq.

**Bəzi ekspertlər hesab edirlər ki, ABŞ qüvvələrinin Əfqanıstanda qalması Azərbaycanı bu ölkə üçün vazkeçilməz hala gətirir.** Çünki hər iki ölkə antiterror koalisiyasının üzvüdür. Ölkəmiz Əfqanıstan məsələsində daim ABŞ-ın yanında olub. Hətta bəzi iddialar var ki, Amerikanın Əfqanıstana gedən uçaqları Azərbaycan yanacağından istifadə edirlər. Ölkəmizin uzun illər sülhməramlılarının İraq və Əfqanıstan məsələsində ABŞ tərəfdən vuruşması ekspertlərin fikirlərinə inamı artırır. Bu baxımdan ABŞ-ın Azərbaycan hakimiyyətinin demokratiya, insan haqları istiqamətindəki qanun pozuntularına göz yumduğu deyilir.



**Politoloq Qabil Hüseynli** hesab edir ki, son günlərdə Amerikanın ölkəmizə qarşı münasibətində yumşalma hiss olunur: "ABŞ artıq xeyli yumşalıb. Əvvəlki kəskin bəyanatların, təzyiqlərin şahidi olmuruq. Sadəcə, Azərbaycan səfirini çağırıb, informasiya xarakterli suallar verirlər. Belə şeylər normal bir haldır. Görünür, ABŞ-da kimlərsə öz ölkəsinin geosiyasi maraqlarını düşündü. Azərbaycanın geosiyasi, strateji baxımdan Amerika üçün vazkeçilməz ölkə olduğunu anladılar. Azərbaycan antiterror koalisiyasının ayrılmaz bir üzvüdür. Azərbaycan əsgəri İraq, Kosovada iştirak etdi, uzun müddətdir Əfqanıstandadır. Üstəlik, Əfqanıstandakı ABŞ ordusunun təchizatının ən aşağısı 70-80%-i Azərbaycan ərazisi vasitəsilə həyata keçirilir. Amerikanın bölgədəki siyasətinin həyata keçirilməsi üçün böyük əhəmiyyətə malikdir. Hələ gələcəkdə olacaq qaz layihələrini, Bakı-Ceyhanın funksiyasını demirəm. Azərbaycan sadiqliklə ABŞ-ın geosiyasi maraqlarına xidmət edən layihələrdə iştirak edir və hazırda etməkdədir. Orada da analitiklər var. Qərara gəliblər ki, Azərbaycan onlar üçün vacib ölkədir. Ona görə də, Azərbaycan-ABŞ münasibətlərinin qorunub saxlanılmasında maraqlıdırlar. Son dövrlərdə ABŞ-ın ərazi bütövlüyümüzü tanıması, Ermənistanı işğalçı dövlət kimi qələmə verməsi, Dağlıq Qarabağdakı seçkiləri tanımaması, strateji münasibətləri saxlamaq üçün atılmış addımlardır".

**Q.Hüseynli ABŞ-ın sorğu şirkətinin seçkiöncəsi ölkəmizdə apardığı sorğunun məqsədlərindən də danışdı**: "Onlar sadəcə əmin olmaq istəyirdilər ki, əhali arasında hakimiyyətin reytingi nə qədərdir. Əmin oldular ki, hakimiyyətin bazası kifayət qədər möhkəmdir. Bunu özləri üçün məlumat kimi qəbul etdilər. Hesab edirəm ki, bu sorğunun keçirilməsi hər iki ölkə üçün də əhəmiyyətli idi. ABŞ ölkədəki vəziyyətə əmin oldu".

**Politoloq hər iki ölkənin maraqlarına uyğun gələn siyasət yürüdüldüyü qənaətindədir**: "Birinci xanım Mehriban Əliyeva ABŞ səfiri Sekutanı qəbul etdi. Heç şübhə etmirəm ki, tərəflər arasında bir sıra məsələlərin razılaşdırılması prosesi gedir. Tərəfləri ayıran siyasi məhbusların məsələsinin yaxın zamanlarda həll olunacağını düşünürəm. Bu, ABŞ-Azərbaycan münasibətlərinin müsbət istiqamətdə davam edəcəyinə yardımçı olacaq".

**Q.Hüseynli ABŞ qoşunlarının Əfqanıstanda saxlanılması məsələsinə də toxundu**: "Dünya alışıb-yanır. İraqdan qoşunlar çıxarıldı, İŞİD yarandı. İraqdan Amerika qoşunlarının çıxarılması Obamının ən böyük səhvi idi. Bunun üçün də, onu gələcəkdə heç də xoş olmayan süprizlər gözləyə bilər. Əgər "Taliban" Əfqanıstan ərazisində 5 minlik qoşun hazırlayırsa, o zaman nəyə görə hərbi qüvvələri çıxarmalıdır? Ölkədə sabitliyi qoruyub saxlamaq lazımdır".

❑ **Cavanşir ABBASLI**

# Ermənistandan böyük köç sürətlənib

## Artıq olan-qalan əcnəbi iş adamları da ölkədən qaçır; həm qonşu xalqın torpaqlarını işğalda saxlamaq, həm də yaxşı yaşamaq mümkün deyil...

**İldən-ilə boşalan işğalçı Ermənistan son zamanlar növbəti demoqrafik problemlə üzləşib - Azərbaycanla həmsərhəd erməni kəndlərinin sakinləri müharibə təhlükəsi ilə bağlı kütləvi şəkildə öz evlərini tərk edir. Eyni proses işğal altındakı Dağlıq Qarabağın azərbaycanlı kəndlərlə həmsərhəd kəndlərində müşahidə edilməkdədir.**




Vəziyyətdən ciddi narahat olan Ermənistan hakimiyyəti isə kəndləri tərk edən sakinlərin qarşısını almaq üçün müxtəlif tədbirlər həyata keçirməyə başlayıb. Ermənistan Milli Təhlükəsizlik Xidmətinin rəisi, general-polkovnik Qoriq Akopyanın qondarma "DQR"in "Milli Təhlükəsizlik Xidməti"nin rəisi Arşavir Qaramyana ünvanlandığı yazılı xəbərdarlıq məktubu bunun əyani sübutu hesab edilə bilər.

Akopyan son vaxtlar Ermənistan-Azərbaycan sərhədi boyunca çoxsaylı atəşkəs rejimi pozuntuları, erməni əsgərlər arasında itkilər, dinc əhalinin və mülki evlərin bombalanmasının əhali arasında vahimə yaratdığını etiraf edib: "Sərhədyanı bölgədə yerləşən kəndlərin sakinləri öz yaşayış yerlərini tərk edir, ailələrini İrəvana, Abovyana, başqa şəhərlərə aparır və qayıtmağa hazırlaşmırlar. Kənd əhalisinin böyük qismi, imkanlılar öz ailələrini kəndlərdən götürürlər. Artıq bu gün Voskepar, Barekamavan, Kot, Bağanis, Berdavan yaşayış yerləri boşdur. Regionda yaranmış vəziyyəti nəzərə alaraq, Dağlıq Qarabağda eyni vəziyyətin yaranmaması üçün əmr edirəm ki, əhali arasında izahat işləri aparılsın və vahimə yaradan şəxslər məsuliyyətə cəlb olunsun".

Ermənistanın işğal altında saxladığı ərazilər, xüsusən cəbhə boyu olan Ermənistanın şimal-şərq bölgəsinin Tavuş və ətraf ərazilərinin sakinləri də evlərini tərk edirlər. Voskepar, Barekamavan, Koti, Bağanis və Berdavan kəndləri artıq boşalıb.

***

Bu arada Ermənistanı olan-qalan əcnəbi iş adamlarının da ölkəni tərk etməyə başladığı haqda məlumatlar yayılıb. O sırada iranlı iş adamları, hətta erməni əsilli əcnəbi biznesmenlər da var. "Mən Ermənistandakı iş yerlərini bağlayıb Gürcüstana gedən çoxlu iranlı iş adamı tanıyıram". Bunu "Bitum-Ermənistan-İran" şirkətinin qurucusu, erməni əsilli İran vətəndaşı Cavid Zabiholli bildirib.

"İranla əməkdaşlıq etmək üçün yeni imkanlar var. Ancaq iranlı iş adamlarının başlıca problemi Ermənistandakı qanunsuzluqdur. Onların çoxunu dövlət yaradır. Bu problemlər aradan qaldırılarsa, onda iranlılar burada rahat işləyə bilər. Vergi ilə bağlı ciddi problem var. Hər ay qanun dəyişir. Hərə bir söz deyir. İranlı iş adamları hansı qanunlarla işləyəcəklərini bilmək istəyir" - o, vurğulayıb.

Başqa sözlə, məlum olur ki, Ermənistanın boşalması təkcə artan müharibə təhlükəsi ilə deyil, həm də ölkədə hökm sürən qanunsuzluq, korrupsiya, hüquqi dərəbəylik (Vaan Martirosyanın öz ailəsi ilə Azərbaycana qaçması buna bariz sübutdur) və təbii ki, normal iş yerlərinin çatışmazlığı ilə əlaqədardır.

Bəllidir ki, erməni əmək miqrantları əsasən Rusiyaya, həmçinin Ukraynaya, bəzi Avropa ölkələri və Türkiyəyə üz tuturlar. Təkcə Türkiyənin özündə hazırda yüz mindən çox erməni miqrant var. Lakin Rusiyadakı məlum durum üzündən oradakı ermənilərin öz ölkəsinə göndərdiyi pul transfertləri statistikaya görə, iki dəfə azalıb. Deməli, paralel olaraq Türkiyədəki erməni əmək miqrantlarının Ermənistanda qalan əhali üçün əhəmiyyəti artıb.

Üstəlik, indi sərhəd bölgələrinin əhalisinin də öz evlərindən çıxması Ermənistan üçün əlavə yükə çevriləcəkdir. Heç şübhə yox ki, həmin əhalinin iş qabiliyyətli hissəsi də tezliklə başqa ölkələrə üz tutaraq miqrant selinə qoşulacaq.

***

Bu acınacaqlı durumdan çıxmağın, böyük köçün qarşısını almağın yeganə yolu isə dəfələrlə deyildiyi kimi, Dağlıq Qarabağ probleminin tezliklə həllidir. Yalnız bölgənin bu ən köhnə ixtilafı ədalətli şəkildə yoluna qoyulandan sonra Ermənistanda iqtisadi tənəzzül dayana, yeni iş yerləri açıla, digər region xalqları kimi ermənilər də normal rifaha qoşula bilərlər. Təmas xəttindəki son qanlı olayların düşmənə ünvanlı ən mühüm xəbərdarlıq mesajı da əslində elə budur.

**Əfsus ki, Ermənistanda hakimiyyəti 1998-ci ildən zəbt eləmiş "Qarabağ klanı" bu həqiqəti yaxına buraxmaq istəmir. Bəhanə də belədir ki, guya Rusiya imkan vermir. Ancaq Azərbaycana qarşı torpaq iddiası Moskvaya yox, İrəvana məxsusdur. Bu iddiadan geri çəkilmək yetər ki, "Rusiya amili" gündəmdən dərhal çıxsın. Həm qonşu xalqın torpaqlarını nəzarətdə saxlamaq, həm də yaxşı yaşamaq mümkün deyil.**

❑ **Siyasət şöbəsi**

# Nazirin avtovağzalındakı dərinləşən çatların gizlinləri...

## Nəqliyyat Nazirliyinin tabeliyində olan qurum Ziya Məmmədovun obyektinə girişi bağlayıb








**Bakı Beynəlxalq Avtovağzal Kompleksinin sürüşməsi mətbuatda geniş müzakirə mövzusudur. Hazırda mediada müzakirə olunan bu məsələ, əslində illər əvvəldən bəlli idi. 2011-ci ildə kompleksin ətrafında çökmələrin baş verdiyi haqda mətbuatda xəbərlər dolaşırdı.**

2004-ci ildə özülü qoyulan kompleksin istinad divarlarının dağılacağı 4 il əvvəl də mətbuatda çap olunan yazılarda iddia olunurdu...

Əraziyə baş çəkib orada nə baş verdiyinə aydınlıq gətirməyə çalışdıq. Bakı-Sumqayıt yolunun kənarında yerləşən kompleksə ayrılan yolda çatlar var. Həmin çatlar yoldan kompleksə ayrılan enişli yolun başlanğıcında gözə dəyir. Həmin çatların kompleks ərazisində olan "Comfort İNN" hotelə, Beynəlxalq Avtovağzal Kompleksinə, oradakı qurğulara hər hansı bir təhlükə törədə biləcəyini söyləmək çətindir. Bu gün kompleksin yük maşınlarını üçün nəzərdə tutulan girişində əmələ gələn çatlara respublika ərazisində yeni çəkilən əksər yollarda rast gəlmək olur. Digər ərazilərdəki yollarda çatları yamayır və istismarına davam olunur.

Hazırda Beynəlxalq Avtovağzal Kompleksinə gedən yolu "Azəryolservis" bağlayıb. Yolun ortasına köhnə "Zil" markalı yük maşınını qoyub əraziyə girişdə də üzərində "Nəqliyyat Nazirliyi "Azəryolservis" ASC, STOP" sözləri yazılan lentlər çəkiblər. Yolda hər hansı təmir işi hələ ki aparılmır.

Maraqlıdır ki, **Beynəlxalq Avtovağzal Kompleksinin baş mühəndisi İlham İbişov** mətbuata açıqlamasında yolda yaranmış çatların Binəqədi Rayon İcra Hakimiyyətinin həmin ərazidə saldığı yamacların, təpəcikləri suvarılması üzündən baş verdiyini söyləyib. Binəqədi Rayon İcra Hakimiyyətinin saldığı yamaclar, qurulan süni təpəciklər isə ərazidən xeyli aralıdadır.



Mühəndisin dediyi kimi ərazidə aparılan suvarma işlərindən sonra yolda belə bir çatların əmələ gəlməsi mümkündür. Amma məsələnin bu tərəfi də var ki, Binəqədi İcra Hakimiyyətinin müvafiq qurumunun işçiləri orada suvarma işlərini 3 ay davam edən yay boyunca həyata keçirilər. İlin 9 ayının böyük hissəsi yağışlı və qarlı günlərlə keçir. Belə bir halda ərazidəki sürüşmə və çökməyə təsir edən amillər sırasında suvarmanın ən son yerdə gəldiyini də söyləmək olar.



Bu baxımdan ərazidəki sürüşmə və çökmə ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının baş geoloqu Ələmdar Piriyev fikirlərini daha doğru hesab etmək olar. Ə.Piriyev apa.az-a açıqlamasında deyib ki, əgər yağışlar davam edərsə, ərazidə uçma, böyük çökmə baş verə bilər. Onun sözlərinə görə, sürüşmə atmosfer çöküntülərinin, ərazidə aparılan suvarmanın təsiri nəticəsində baş verib. Baş geoloq əlavə edib ki, lay sularının sürüşmə prosesində rolunun olub-olmamağı aparılan tədqiqatlardan sonra biləcək. Ə.Piriyev həmçinin vurğulayıb ki, sürüşmənin kompleksin binasına heç bir təsiri olmayıb.



Tikintisinə 80 milyon dollar xərclənən kompleksin, xalq arasında "Titanik" adlandırılan Beynəlxalq Avtovağzalın yağış sularına davam gətirmədiyi haqda xəbərlər də real vəziyyətdən uzaqdır. Ərazidə nəqliyyat vasitələrinin hərəkətinə qadağa qoyulsa da, bu qadağa piyadalara şamil olunmur. Piyadalar həmin yolda sərbəst şəkildə hərəkət edirlər. Kompleksdə işləyənlər isə yolda baş verənləri ərazidə drenaj-kanalizasiya sisteminin yoxluğu ilə izah edirlər. Deyirlər ki, kanalizasiya olmadığına görə yağış sularının axıntısı da mümkün olmur, ərazidə süni gölməçələr yaranır.

Qeyd edək ki, kompleks inşa olunarkən orada tikinti işlərinin başdansovdu aparılması haqda mətbuatda xəbərlər dolaşırdı. Bildirilirdi ki, paytaxtdaxili və Bakıətrafı marşrutlar üzrə sərnişindaşıma xidmətində istifadə ediləcək müxtəlif tutumlu avtobusların Bakı avtovağzalına girişi və çıxışı oradakı asfalt örtüyünün tamamilə çökməsinə səbəb olacaq. Tikintinin aparıldığı 5 il ərzində - 2004-cü ildən 2009-cu ilə qədər mətbuatda bu haqda dərc olunan yazılara sadəcə əhəmiyyət verilmirdi. 2009-cu il fevralın 12-də kompleks istifadəyə veriləndən sonra da belə xəbərlər vardı...

Həmin vaxt əhəmiyyətsiz olan məsələyə nəqliyyat naziri Ziya Məmmədovun məzuniyyətə göndərilməsindən sonraya təsadüf etməsi də maraq doğurur...

Nəzərə çatdıraq ki, Beynəlxalq Avtovağzal Kompleksinin inşası üçün 2003-cü ildə Nəqliyyat Nazirliyi tender elan edib. Tenderin qalibi nazir Ziya Məmmədovun qardaşı, deputat Elton Məmmədovun təsisçisi olduğu "Bakı XXI əsr" şirkəti olub.

E.Məmmədovun şirkəti görüləcək işlərin podratçısı kimi nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun rəhbərlik etdiyi, hazırda "Garant" adlanan "ZQAN Holdinq"i seçib. Və tikinti işlərinə başlanılıb. Layihənin icrasına nə qədər pul xərcləndiyi, kompleksin niyə məhz "ZQAN" tərəfindən tikilməsi haqda ictimaiyyətə heç bir açıqlama verilməyib. Bu gün də kompleksi "Bakı XXI Əsr", başqa sözlə desək nəqliyyat nazirinin qardaşı deputat Elton Məmmədov idarə edir. Kompleksin Beynəlxalq Avtovağzal kimi fəaliyyətinə də lisenziyanı verən də nəqliyyat naziri olub.

**Kompleksə 1500 mağazadan ibarət ticarət mərkəzi, iri-li-xırdalı onlarla kafe, 4 ulduzlu "Comfort İNN" oteli, 720 yerlik avto dayanacaq, "Bakı XXI Əsr" MMC adlanan yanacaq doldurma, avto yuma və təmir məntəqələri daxildir. Xatırladaq ki, ümumi sahəsi 170 min kvadrat metr ərazini əhatə edən avtovağzal kompleksinin I, II, III və IV mərtəbədə yerləşən ticarət mərkəzi, III mərtəbədə yerləşən avtobus platforması, avtobusların dayanması üçün meydançalar, ana və uşaq otağı, poçt, teleqraf, bank, rəsmi şəxslər üçün xüsusi xidmət otağı, gözləmə zalları, kafe və yeməkxanalar, yük saxlama kameraları, oyun zalı, tibb məntəqəsi daxildir. Bir sözlə kompleks ölkə əhəmiyyətlidir. Müvafiq olaraq belə bir obyektə giriş-çıxışı məhdudlaşdırmaq da uyğun deyil. Amma məhdudlaşdırıblar. Belə görünür ki, kompleksin girişində üzə çıxan çatın mənbəyi nəqliyyat naziri ilə hakimiyyət arasında yaranan münasibətlərə söykənir.**

❑ E.MƏMMƏDƏLİYEV








YENİ MÜSAVAT
N 230 (6258) 17 oktyabr 2015

# Nəqliyyat Nazirliyinin "qoçuları" küçələrdən yığışdırılır

## Yük maşınlarının və taksilərin sahiblərinə qan udduran nəqliyyat müfəttişlərinə Bakı küçələrində rast gəlinmir

**15 oktyabr tarixində ölkə başçısının imzaladığı fərman ilə əlaqədar olaraq Nəqliyyat Nazirliyinin inzibati xətalara cavabdeh olduğu bəzi səlahiyyətləri əlindən alınaraq Baş Dövlət Yol Polisi İdarəsinə verilib.**





Musavat.com-un əməkdaşı artıq Bakı küçələrində Nəqliyyat Nazirliyinin məşhur "qoçu"larının fəaliyyət göstərmədiklərinin şahidi olub. Belə ki, şəhərdə Nəqliyyat Nazirliyinin "qoçu"larının dayandığı yerlərdə artıq yol polisinin əməkdaşları xidmət aparırlar.

Əvvəllər nəqliyyat müfəttişləri dayandıqları yerlərdə onlara rast gəlmədik. Sürücülər əməkdaşımıza bildiriblər ki, dünən (15 oktyabr) axşamdan etibarən, nazirliyin "qolu zorlu" əməkdaşlarına rast gəlməyiblər. Beləliklə, Ziya Məmmədovun "qoçu"larının at oynatmasına da son verilir.

Xatırladaq ki, ölkə başçısının fərmanına əsasən Nəqliyyat Nazirliyinin aşağıdakı səlahiyyətləri əllərindən alınıb:

- Taksi tanınma nişanları, taksometr və ya sərnişin və baqaj daşınması qaydaları ilə müəyyən edilmiş digər məlumat göstəriciləri olmadan taksi minik avtomobili ilə sərnişin daşımalarının həyata keçirilməsi *(150-2.1.2-ci maddə)*;

- sərnişin və baqaj daşınması qaydaları ilə müəyyən edilmiş daşınma sənədləri olmadan sərnişin daşımalarının həyata keçirilməsi *(150-2.1.7-ci maddə);*

- avtomobil nəqliyyatı ilə yük daşınması qaydalarında nəzərdə tutulmuş daşınma şərtlərinin pozulması *(150-3-cü maddə)*;

- xüsusi razılıq (lisenziya) olmadan avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınması, yaxud lisenziya şərtlərinin pozulması *(150-4-cü maddə)*;

- avtomobil yollarında , prospektlərdə, küçələrdə, təhkim və mühafizə zolağında yol hərəkətinin təhlükəsizliyinin pozulması ilə bağlı olan xeyli xətalar *(163-cü maddə)*;

- iriqabaritli və (və ya) ağırçəkili nəqliyyat vasitələrinin icazə verilən qabarit, çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərinə dair tələblərin pozulması *(163-1-ci maddə)*;

- avtobuslarda və taksi minik avtomobillərində sərnişinlərinin icbari fərdi qəza sığortasının olmaması və bəzi başqa xətalar *(163-1-ci maddə)*.

❑ Əli RAİS

# Ramiz Yediyarov Gədəbəydə üsyan hazırlayır

## İcra başçısı Bakıya şikayətə gələn sahibkarı həbs etdirdi

**Gədəbəyin icra başçısı Ramiz Yediyarov sahibkar Rasim Hərriyevi həbs etdirib. Bu haqda redaksiyamıza daxil olan məlumatda deyilir ki, sahibkar bir neçə gün əvvəl digər sahibkarlarla birgə Bakıya gələrək Prezident Adminstrasiyasına yollanıblar. Sahibkarlar ölkə rəhbərliyinə icra başçısı Ramiz Yediyarovun əməllərindən cana doyduqlarını söyləyiblər. Qeyd ediblər ki, icra başçısı öz biznes şəbəkəsini genişləndirmək üçün onlara divan tutur. Dövlət qurumlarının gücündən onların bizneslərinin çökdürülməsi üçün istifadə edir.**




Sahibkarlar Gədəbəyə dönəndən sonra icra başçısı xəbər yaydırıb ki, Bakıya gedənlər ən sərt şəkildə cəzalandırılacaq. Belə də olub. R.Hürrəyev Gədəbəy İcra Hakimiyyətinə dəvət olunaraq ondan Bakıya digər sahibklarların təhriki ilə getməsi haqda izahat yazması tələb olunub. Sahibkar isə bundan imtina edib. Deyib ki, şikayətə üzləşdiyi haqsızlıqlardan cana doyduğu üçün gedib. Sahibkarı ələ almaq üçün ona biznes fəaliyyətinə köməklik ediləcəyini, güzəştli vergidən faydalanması üçün şərait yaradılacağı bildirilib.

Lakin R.Hərriyev təklifi qəbul etməyib. Həbs olunacağı ilə hədələnən sahibkar İcra Hakimiyyətindən çıxıb evinə gedərkən provakasiyaya çəkilib. Onu elə icra hakimiyyətinin qarşısında döyüblər. İcra hakimiyyətinin binasındakı pəncərələrdən sahibkarın döyülməsini müşahidə edənlər olub. Döyülən R.Hərriyevi icra hakimiyyətinin qarşısında saxlayaraq olayı protokollaşdırıblar. Gədəbəy məhkəməsinə aparılan sahibkarı 15 sutka azadlıqdan məhrum ediblər. Guya icra hakimiyyətinə çağırılan R.Hərriyev oradan çıxandan sonra xuliqanlıq edib.

**Sahibkarlar deyirlər ki, R.Hərriyev şərlənib.** Bununla onların gözünü qorxutmağa, əllərindən alınan bizneslərini tələb etmələrindən əl çəkmələrinə nail olmaq istəyirlər: "Biz cana doymuşuq. İşimizi əlimizdən alıb. Ramiz Yediyarov 3 ildir ki, başımıza oyun açır. Gələn kimi rayondakı iş adamlarının obyektlərini söküb qoydu yerə. Adını da qoyub ki, guya abadlıq işləri görür. Həmin əraziləri bizim obyektlərimizdən təmizlədi, özünə obyektlər tikdirir. Bizim ümidimiz Prezident Adminstrasiyasınadır. Bəlkə haqq sözümüzü prezidentə çatdırdılar. Artıq cana döymuşuq, kütləvi şəkildə icra hakimiyyətinin qarşısında özümüzü yandırmaq haqda düşünürük".

Bir neçə gün əvvəl musavat.com Gədəbəyli sahibkarların Bakıda Fəxri Xiyabanın qarşısına yığışaraq oradan Prezident Adminstrasiyasına getmələri haqda yazı təqdim etmişdi. Həmin yazıda sahibkarlardan biri olan Vaqif Səfərovun fikirləri yer almışdı. Demişdi ki, icra başçısı Ramiz Yediyarov ona məxsus olan torpağı zəbt edib. Oradakı obyektlərini söküb, yerində ticarət mərkəzi, obyektlər tikdirib: "Söküntü zamanı mənə söz verdi ki, buranın ağsaqqalı sən olacaqsan. Amma iş bitəndən sonra verdiyi sözə əməl etmədi. Əslində mən söküntü zamanı buna qarşı çıxmalı idim. Amma o, rayonun icra başçısıdır. Nə edə bilərdim ki? Ailəmi düşünüb, susdum".

Sahibkar Oktay Əliyev də Ramiz Yediyarovdan ziyan görən sahibkarlardan biri olduğunu demişdi. Demişdi ki, özü Bakıda müalicədə olduğu bir vaxtda dükanın içində ərzağı, soyuducuları ola-ola Ramiz Yediyarov obyekti sökdürüb. O, Bakıdan dönəndən sonra şikayət üçün Ramiz Yediyarovun qəbuluna getdiyini və başçının kabinetindən çıxan kimi tutularaq 15 sutka həbsə salındığını açıqlamışdı.

**Qeyd edək ki, sahibkarlar Bakıya planlaşdırdıqları növbəti səfərlərini ertələdiklərini də bildiriblər.**

❑ E.HÜSEYNOV





# Böhran şəhərin mərkəzindəki mağazaları da vurdu

**Bakıda brend geyim mağazaları kütləvi şəkildə bağlanır. Musavat.com-un əməkdaşının verdiyi məlumata görə, şəhərin mərkəzində yerləşən bir çox geyim mağazalarının pəncərələrinə artıq bağlanması ilə bağlı elanlar vurulub. Şəhərin "Torqovı" adlanan hissəsində, (Nizami küçəsi) Bülbül prospekti boyunca çoxsaylı mağazalar, iaşə obyektləri artıq fəaliyyətlərini dayandırıblar.**






Eyni zamanda şəhərin Səməd Vurğun, Üzeyir Hacıbəyli, Azərbaycan prospektlərində də müxtəlif obyektlərin şüşələrində "icarə verilir" sözünə rast gəlmək olur. Mağaza sahibləri bildirirlər ki, onların bu addımı atmasına səbəb, manatın devalvasiyasından sonra ölkədə yaşanan gərginlikdir. Eyni zamanda satıcılar vergi və digər orqanların tələb etdiyi "haqqı" ödəməkdə çətinlik çəkdiklərini söylədilər. Nizami küçəsində əvvəllər mağaza sahibi olan Rəşidin sözlərinə görə, şəhərin bu hissəsində insanların obyektləri bağlamasının səbəbi icarə haqqının çox olmasıdır: "Burada icarə haqqı yüksəkdir. Balaca bir mağazaya elə icarə haqqı istəyirlər ki, adam məəttəl qalır. İndi camaat da alış-verişə bir o qədər də maraq göstərmədiyi üçün icarə haqqın verə bilməyənlər obyektləri bağlayırlar. Təkcə icarə haqqı deyil. Bunun vergisi var, "sanepidem" var və sairə. Hamısı puldur də. Ona görə də burada indiki şəraitdə hər hansı bir obyekt işlətmək qeyri-mümkün işdir. İlin axırı da gələndə hər şey təzədən başlayır. Yenidən üzərimizə müxtəlif orqanlar rüsumlar qoyurlar. Buna görə də elə ən salamatı obyekti bağlamaqdır. Hələ bu gedişlər çox obyekt bağlanacaq. Burada qalanlar təkcə iri firmaların mağazaları olacaq. Onlar da getdikcə qiymətləri artırırlar".

"Park Bulvar"da, "28 Mall"da obyektlərin fəaliyyətlərini dayandırmalarına rast gəlinir. Ölkədə son zamanlar ən çox bağlanan obyekt isə A.M.A.Y Ticarət Mərkəzindədir. Ticarət mərkəzi 8 mərtəbəli olsa da, mağazalar ancaq birinci mərtəbədə fəaliyyət göstərir. Birinci mərtəbədə fəaliyyət göstərən mağazaların əksəriyyətinin qapısını bağlı gördük. Bunun səbəbini Rasim adlı satıcı belə izah etdi: "Alıcı yoxdur. Həftənin şənbə və bazar günləri bir-iki alıcıya rast gəlmək olur ki, onlar da sadəcə, baxmağa gəlirlər. Qiymətlərimiz də baha deyil ki, deyək buna görədir. Bu baxımdan da əksər mağaza sahibləri gündüz vaxtı mağazanı heç açmırlar. Alıcılar adətən, saat 18:00-dan sonra gəldikləri üçün satıcılar da elə həmin vaxtı gəlib mağazalarını açırlar. Çoxları isə icarə haqqını verə bilmədiyi üçün ümumiyyətlə, mağazanı bağlayıb, çıxıb gedib. Ötən illərlə müqayisədə "AMAY"da 10-dan çox mağaza fəaliyyətini dayandırıb. Səbəb isə müştərinin azlığı və icarə haqqının baha olmasıdır".

Ekspertlər hesab edirlər ki, "üzən məzənnə"yə keçiddən sonra manat dollara nisbətdə daha da dəyərdən düşəcək. Bunun nəticəsində isə ölkədə daha çox obyektlər bağlanacaq, işsizlik artacaq.

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 230 (6258) 17 oktyabr 2015

# Yaşayış minimumu - 136 manatla neçə gün yaşamaq olar?

## Ekspertlər yaşayış minimumunun artırılmasının yetərli olmadığını bildirirlər, "azı iki dəfə artırılmalıdır"...

**Ölkədə 2016-cı il üçün yaşayış minimumu 136 manat məbləğində proqnozlaşdırılıb. Bu barədə məsələ Milli Məclisin plenar iclasında müzakirə edilən "Azərbaycan Respublikasında 2016-cı il üçün yaşayış minimumu haqqında" qanun layihəsində öz əksini tapıb. Qeyd olunub ki, 2016-cı il dövlət büdcəsi zərfində ölkəmizdə 2016-cı il üçün yaşayış minimumunun 136 manat olacağı proqnozlaşdırılıb. Sənədə əsasən, əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumu ölkə üzrə 136 manat, əmək qabiliyyətli əhali üçün 145 manat, pensiyaçılar üçün 115 manat, uşaqlar üçün isə 118 manat məbləğində gözlənilir.**

Ekspertlər isə bildirirlər ki, Azərbaycanda minimum əmək haqqı, minimum təqaüd, yaşayış minimumu, sosial müavinətlər köhnə, çağdaş olmayan, yeni tələbatlara cavab verməyən indikatorlarla hesablanır. "Müasir dünyada bütün bu kateqoriyalara, o cümlədən minimum əmək haqqına internetdən istifadə, mədəni əyləncə, kitab və digər xərclər də nəzərə alınmaqla hesablanır. Bizdə isə bütün hesablamalar rəsmi rəqəmlərin xoş olması üçün edilir, reallıq nəzərə alınmır. Məsələn, minimum əmək haqqı müxtəlif kateqoriyalarda 110 manat ətrafında dəyişir, amma Avropa Birliyinin ən kasıb ölkəsi olan Bolqarıstanda bu 200 avro civarındadır, yəni bizdən 2 dəfə çoxdur. Həm də onu nəzərə almaq lazımdır ki, Bolqarıstanda qiymətlər də bizdən 2 dəfəyə yaxın ucuzdur",- **ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a danışarkən bildirib. Onun sözlərinə görə, bizdə çağdaş, normal indikatorlar tətdiq edilərək hesablamalar aparılsa, minimum əmək haqqı, yaşayış minimumu, sosial müavinatlar azı 2 dəfə artırılmalıdır.

Qeyd edək ki, ölkədə yaşayış minimumu və ehtiyac meyarı daha çox ünvanlı sosial yardım prosesində istifadə olunur. Əhaliyə veriləcək ünvanlı sosial yardımı müəyyənləşdirmək üçün ehtiyac müəyyən olunur. Adambaşına düşən ehtiyac minimumu əsasında onların əldə etdikləri gəlirlər tutuşdurulur və bunun əsasında ünvanlı sosial yardımın məbləği müəyyən edilir. Ekspertlər vurğulayırlar ki, əslində ölkədə yaşayış minimumunun hesablanma indikatorları dəyişməlidir. "Axırıncı verilən məlumatlardan aydın olurdu ki, bizdə yaşayış minimumunun hesablanması kriteriyaları keçən əsrin 90-cı illərində müəyyən olunub. Məsələn, gündəlik çörək, yağ, ət, meyvə, tərəvəz rasionu o zamanın tələblərinə uyğun müəyyənləşir. Yaxud da geyimdə belə bir kriteriyalar var ki, bir ayaqqabının 3 il, üst paltarlarının 5 il geyinilməsi nəzərdə tutulur. Bu isə qeyri-real yanaşmadır. Hamı bilir ki, insan bir ayaqqabını 3 il geyinə bilməz. Ən azından aşınmaya məruz qalır və problemlərə səbəb olur. Ona görə də 21-ci əsrin, 2015-ci ilin tələblərinə cavab verən yeni kriteriyalar müəyyən edilməlidir",- deyə Natiq Cəfərli "Bizimyol"a bildirib. Onun sözlərinə görə, artıq çağdaş dünyada, Avropa Birliyi ölkələrində, hətta qonşu Türkiyədə yaşayış minimumuna yeni hesablama mexanizmləri daxil edilib: "Dünyada hətta internetdən istifadəyə, bir ay ərzində mədəni tədbirlərə qatılmağa, kitab almağa qədər yeni indikatorlar da ələ alınır və yaşayış minimumu bu qaydalara görə hesablanır. Azərbaycanda da ilk növbədə atılacaq addım məhz bu kriteriyaların dəyişdirilməsidir. Həm ərzaq, həm geyim, həm yaşam tərzi, həm də aylıq başqa xərclərlə bağlı yeni kriteriyalar salınmalıdır ki, normal yaşayış səviyyəsində minimumu hesablamaq mümkün olsun".



**Bildirilir ki, rəsmi rəqəmlərə görə, Avropa Birliyinin ən kasıb ölkəsi Bolqarıstandır.** Hətta bu ölkədə belə yaşayış minimumu 180 avro civarındadır. Yəni bizim indiki məzənnə ilə götürsək, 200 manatdan yuxarıdır. Bu ölkədə qiymətlər də Azərbaycanda olan qiymətlərdən iki dəfə aşağıdır: həm geyimdə, həm ərzaqda, həm də kommunal xərclərdə. İnsanların gəlirləri aşağı olduğu üçün bu, qiymətlərə də təsir göstərir. Ekspertlər qeyd edirlər ki, Azərbaycana ilk növbədə bu yanaşma gətirilməli, insanların yeni yaşayış minimumlarının hesablanma qaydaları müəyyənləşməlidir. Bundan sonra onun həcmi və həddi elan olunmalıdır. Yəni bu, Nazirlər Kabinetinin, yaxud da hansısa 5-6 məmurun yığışıb birlikdə qərar verəcəyi bir rəqəm olmamalıdır. Bəlli hesablama mexanizmi olan kriteriyalar olmalıdır ki, mütəxəssislər, hətta adi vətəndaş belə aylıq minimumu özləri hesablaya bilsinlər. Həmçinin, hesablama zamanı inflyasiya səviyyəsinə görə indeksləşmə də aparılmalıdır.

"Hesablama kriteriyalarına inflyasiyanın təsirlərini də daxil etmək lazımdır ki, ölkədəki gizli və açıq proseslər nəzərə alınmalıdır. Yəni rəsmi rəqəmlərin təxminən 3 faiz civarında inflyasiya olduğu deyilsə də, real vəziyyət rəsmi rəqəmlərdən 2-3 dəfə artıqdır. Əsasən ərzaq inflyasiyası nəzərə alınmalıdır. Çünki bu, digər mal və xidmət növlərindən daha artıq olur. Yoxsulluq həddində yaşayan insanların əsas xərclərini məhz ərzaq xərcləri təşkil edir. Ona görə də məhz ərzaq məhsullarına görə indeksləşmə aparılması doğru olardı. Bütün bu kompleks tədbirlər həyata keçirildikdən sonra müvafiq bir rəqəm ortalığa çıxmalıdır. Amma təəssüf ki, bizdə əvvəlcə rəqəmi elan edirlər, ondan sonra bu rəqəmə bir ay yaşamağın mümkün olub-olmadığını hesablamağa və ya fikir yürütməyə çalışırlar. Bu isə kökündən səhv yanaşmadır",- N.Cəfərli vurğulayıb.

Qeyd edək ki, gələn il üçün nəzərdə tutulan məbləğ əvvəlki il üçün nəzərdə tutulan 131 manatlıq səviyyədən 3,8 faiz yüksəkdir. 2015-ci il büdcəsində də yaşayış minimumu əvvəlki ilə baxanda 4,8 faiz artırılmışdı.

"Yaşayış minimumu haqqında" qanuna əsasən, yaşayış minimumu minimum istehlak səbətinin dəyəri və icbari ödənişlərin cəmindən ibarət sosial normadır. Yəni vətəndaşın yaşaması üçün lazım olan ərzaqların, geyimlərin və digər məişət avadanlıqlarının, həmçinin kommunal xidmətlərin toplam qiymətindən ibarətdir. Ölkədə bir çox sosial müavinətlər bu göstərici əsasında müəyyən edilir.

**Ekspert Azər Mehdiyev** isə gələn il üçün nəzərdə tutulan yaşayış minimumu artımını yetərli saymadığını bildirib: "Yaşayış minimumu ən vacib istehlak mallarına uyğun tutulur və ərzaq bu məsələdə əsas paya malikdir. Devalvasiyadan sonra ölkədə ərzaq məhsullarının qiyməti 35-40 faiz artıb. Buna görə də yaşayış minimumu da bu səviyyədə artmalı idi". O, həmçinin qeyd edib ki, Azərbaycanda yaşayış minimumu səviyyəsi müəyyən edilərkən heç bir ciddi araşdırma aparılmır: "Nə vaxtsa bir rəqəm müəyyən ediblər. Hər il rəsmi inflyasiya göstəricisinə uyğun onu artırırlar. Rəsmi inflyasiya göstəricisi çox vaxt ərzaqın real bahalaşmasından qat-qat az olur".

❑ **RÖYA**

# Sahibkarlardan dövlət başçısına "pambıq müraciəti"...

## "Məhsulumuz batır, pambıq hələ də sahələrdədir"...

**Bir müddət əvvəl məmurların məsuliyyətsizliyi ucbatından tarlalarda məhv olan tonlarla pambıq barədə yazmışdıq. Sahibkarlara pullarının veriləcəyi barədə həftələrlə vəd verilsə də, vəziyyət dəyişməyib. Əksinə, yağışların başlaması pambığın tarlada batmasına səbəb olur.**

Qeyd edək ki, fermerlər dəfələrlə aidiyyatı qurumlara, o cümlədən dövlət başçısına məktub yazsalar da, nəticəsi olmayıb. Sahibkarlar dövlət başçısı İlham Əliyevə növbəti dəfə şikayət ünvanlayıblar. Fermerlərdən biri olan Əfras Əsgərov döğvlət başçısına növbəti dəfə həyəcan dolu məktub ünvanlayıb. Sahibkar bununla bağlı musavat.com-a bildirib ki, dövlət başçısı İlham Əliyevin sonuncu müşavirədəki çıxışından sonra ona müraciət etmək qərarına gəlib. "Şübhəsiz ki, pambıqçılıqla bağlı vəziyyət sizə bəllidir. Bildiyimə görə, sizin bu sahədəki problemi yoluna qoymaq üçün xüsusi göstərişiniz olub. Əvvəlcə kənd təsərrüfatı nazirimiz dünyada analoqu olmayan bir qərar qəbul etdi. Bizə təklif etdi ki, pambığı MKT şirkətinə 38 qəpiqdən sataq. MKT şirkətinin əkdirib yetişdirdiyi pambığın iloqramı 47-50 qəpiyə düşür, yəni kredit, ofis və sair xərclər yüklənir. Ancaq nazir özü xərc çəkməyən şirkətə bizim məhsulu daha ucuz satmağımızı təklif edir ki, bu da başadüşülən deyil. Həmçinin, bizimlə müqaviləsi olan "CTZ- Aqro" MMC şirkətinin maliyələşməsi "Aqrar Kredit" Qapalı Səhmdar Cəmiyyətinə tapşırılıb. On gün əvvəl bizə dedilər ki, ölkə rəhbərliyinin göstərişinə əsasən problemimiz yoluna qoyulacaq. Xeyli vaxt ötməsinə baxmayaraq, hələ də bizim pambığın tədarükü üçün bir manat belə pul ayrılmayıb. Deyilənə görə, "Aqrar Kredit" bizim şirkətə yüksək faizlə pul vermək istəyir və buna görə də razılaşa bilmirlər. Pambıq yığımı mövsümü başa çatmaq üzrədir. Məhsulumuzun yarıdan coxu hələ də sahələrdə qalmaqdadır. İndiyə kimi təhvil verdiyimiz məhsulun pulundan bir manat almamışıq. Kənd Təsərrüfatı Nazirliyinin və "Aqrar Kredit" təşkilatının pambıqçılığa göstərdiyi bu münasibət ölkəmizdə bu sahəni bitirmək üzrədir. Bu isə daha 30-40 min adamın iş yerini itirməsi deməkdir. Sizdən xahiş edirik, bizə dəymiş bu böyük məbləğdə olan ziyanin və bununla bağlı itiriləcək 30-40 min adamın işsiz qalmasının hesabını nazir Heydər Əsədovdan və "Aqrar Kredit"in sədri Məmməd Musayevdən soruşun",- deyə müraciətdə bildirilir.



**Qeyd edək ki, ölkədə pambıqçılığın iflas həddinə çatması iri məmurların sıxışdırılması ilə əlaqələndirilir. Belə ki, səbəb Beynəlxalq Bank qalmaqalına qədər gedib çıxır. "CTZ- Aqro" MMC-də əsas təsisçi olan Cahangir Hacıyev bankdan uzaqlaşdırılandan sonra fermerlərin işləri dalana dirənib. Bildirilir ki, əkilən pambığın 80 faizi hələ sahələrdədir. Sahibkarlar Kənd Təsərrüfatı Nazirliyini hadisələrə seyirçi qalmaqda günahlandırırlar. Bildirilir ki, nazirliyin bu günlərdə ortaya atdığı "MKT İstehsalat Kommersiya" MMC-nin məqsədi fermerlərə yardım etmək deyil. Yəni həmin MMC pambığı çox ucuz, 38 qəpikdən alır. Bu isə heç pambığın maya dəyəri deyil.**

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 230 (6258) 17 oktyabr 2015

# Dağıstan prezidentini Naftalana gətirən səbəb

## Bu rayondakı müalicə mərkəzində müalicələr, dəyişən tariflər və daha nələr...

**Xəbər verdiyimiz kimi, Rusiya Federasiyasının Dağıstan Respublikasının prezidenti Ramazan Abdulatipov Azərbaycanda səfərdədir. Görüşdən sonra açıqlama verən R.Abdulatipov səfərinin qeyri-rəsmi xarakter daşıdığını bildirib: "Azərbaycanda qeyri-rəsmi səfərdəyəm. Səfərimin məqsədi müalicə almaqdır. Naftalan şəhərində müalicə olunacağam".**



Bu açıqlama isə Naftalanda yerləşən müalicə mərkəzi, onun effekti barədə sualları da özü ilə paralel gətirdi. İnsanlarımız daha çox Dağıstan prezidentinin də sorağına gəldiyi bu müalicə mərkəzinin detalları, müalicəsi və müalicəsinin effekti ilə maraqlandılar. Məlumdur ki, Naftalan nefti ilə müalicə mərkəzi Bakının Badamdar qəsəbəsində var. Amma insanlar daha çox onun mənbəyinə - birbaşa Naftalanda yerləşən mərkəzə getməyə meyllidir.

### 10-12 naftalan vannası mütləqdir...

Məlumat üçün deyək ki, Naftalan nefti ilə müalicə amili güclü ağrıkəsici, iltihabəleyhi, damargenəldici, allergiyaəleyhi, hormonabənzər təsirlərə malikdir, ovogenez, ovulyasiya proseslərini və spermatogenezi gücləndirir.

Naftalan vannaları üçün nativ (təbii) - Naftalan neftindən istifadə olunur. Vannanın istiliyi 37 -38*C - dir. Vanna qəbulu müddəti - birinci vannada 8 dəqiqə, qalan vannaların qəbulu zamanı 10 dəqiqədir. İlk vannalar günaşırı təyin olunur, qalan vannalar 2-3 gün vanna, bir gün istirahət günü olmaqla qəbul edilir. Müalicə kursu 10-12 Naftalan vannası təşkil edir. Naftalan vannalarının da növləri var: Ümumi, oturaq və aşağı ətraflar üçün vannalar təyin olunur.

**Başlayaq ümumi Naftalan vannasından.** Bu zaman xəstə vannada uzanır , ürək nahiyəsi vannadan xaricdə qalmalıdir. **Oturaq Naftalan vannası** zamanı xəstə qursağadək vannanın içərisində oturur, ehtiyac olarsa qollarını da dirsəyədək vannaya salır .

**Aşağı ətraflar üçün vanna** qəbul edən zaman isə xəstə xüsusi oturacağın üstündə oturur, ayaqlarını dizdən yuxarıyadək Naftalan vannasının icərisində yerləşdirir.

### Birinci-dördüncü vanna zamanı nə baş verir?

Vanna qəbulundan sonra xəstə neft qalığından təmizlənir, xüsusi kağızla silinir və duş qəbul edir. Duşxanada suyun altına keçməzdən qabaq hamam lifini isladıb sabunlayıb quru bədəni liflə sabunlamaq lazımdır, sonra duşun altına keçib yuyunmaq lazımdır , belə olduqda Naftalan nefti bədəndən asan təmizlənir. Duşda suyun istiliyi 38 - 39 dərəcə olmalıdır, duş qəbulu müddəti isə 15 - 20 dəqiqədən artıq olmamalıdır . Vanna qəbulundan sonra duş qəbul edərkən başı yumaq məsləhət deyil . Vanna qəbulundan sonra xəstə 1 saatadək dincəlməlidir . Naftalan müalicəsi qəbul edərkən, adətən birinci - dördüncü vanna qəbulu zamanı balneoreaksiya baş verir: xəstədə ümumi zəiflik, iştahasızlıq, yüngül baş ağrıları, yuxusuzluq və ya yuxululuq, bağırsaq pozulması kimi ümumi əlamətlər və ağrıların güclənməsi, dəri səpgiləri, ətrafların dərisində hemorragiyalar (göy ləkələr) kimi əlamətlər baş verə bilər. Vanna qəbulu qaydalarına düzgün əməl etdikdə bu əlamətlər müalicə kursunun sonunadək keçir. Balneoreaksiya baş verdikdə müalicə həkiminə müraciət etmək lazımdır. Naftalan müalicəsinin təsiri müalicədən sonraki 1,5 - 2 ay ərzində davam edir və bundan sonra stabil effekt alınır.

Həmin dövrdə xəstələr özlərini soyuqdan və fiziki gərginlikdən qorumalıdır.

Mərkəzdən aldığımız məlumata görə, burada orta müalicə müddəti 15 gündür. 15 gün ərzində 10-11 Naftalan vannası, hər biri 10-11 seans olmaqla digər müalicələr qəbul edilir. Mərkəzdə xəstələrin diaqnozundan asılı olaraq onlara ilk növbədə neft vannası və ya yod-brom vannası və xəstəlikdən asılı olaraq massaj, MBT və fizioterapiya müalicə kursu təyin edilir.

**Mərkəzdə xəstələrin müalicəsi kompleks şəkildə aparılır.** Müalicə kompleksinə masaj, vibromasaj, elektroforez, darsonvalizasiya, maqnitoterapiya, lazerlə müalicə, elektroyuxu, iynəsancma, Seragem, müalicə idmanı, naftaparafin applikasiyaları, inhalyasiya, amplipulsterapiya, neft (Naftalan) fonoforez, hidrokolonoterapiya, ultrasəslə müayinə və ozonoterapiya daxildir.

### Saytdakı və realdakı qiymətlər...

Hesab edək ki, özünüz və yaxınlarınız "Möcüzəli Naftalan" Sağlamlıq Mərkəzində 15 günlük müalicə kursu qəbul etmək istəyir. Mərkəzdə qalma şəraiti, yaşayış necədir? Mərkəzdə yataq korpusu, müayinə və müalicə kabinetləri, yeməkxana və digər (idman zalı - trenajor, namaz otağı, kompüter otağı, kişi və qadın salonu və s.) xidmət sahələri var. Yataq korpusu 1, 2 , 3 adamlıq otaqlar və iki otaqlı iki adamlıq lüks otaqlardan ibarətdir. Mərkəzin saytında qeyd olunub ki, yeməkxanada gündə 3 dəfə xəstələrə Azərbaycan və Avropa mətbəxinin ləzzətli yeməkləri təqdim olunur. Bundan başqa, xəstələrin asudə vaxtlarının təşkili üçün namaz otağı, kitabxana, kompüter otağı-internet, stolüstü tennis, bilyard, voleybol, basketbol, aeorosolyariya, qadın və kişi salonları fəaliyyət göstərir. Canlı musiqi ilə rəqs axşamları, bazar günləri respublikanın səfalı yerlərinə gəzintilər müalicəyə gələnlərin Naftalandan xoş təəssüratla ayrılmasına səbəb olur.

**Sonda mərkəzdəki müalicə tarifləri ilə maraqlandıq.** Özümüzü xəstə yaxını kimi təqdim edib, mərkəzin direktoru ilə əlaqə saxladıq. Məlum oldu ki, 2 nəfərlik otaqda 1 nəfərin qalması, üstəgəl, gündə 3 dəfə yemək və bütün müalicə prosedurlarından keçmək 30 AZN-ə başa gəlir. Direktor bildirdi ki, minimum 15 günlük müalicə tövsiyə olunur ki, ondan daha azı effekt vermir. Sonucda isə ümumi müalicə kursunun məbləği 450 AZN-dən az etmir.

Müalicə mərkəzinin rəsmi saytında isə qiymətlər barədə aşağıdakı qeydlər yer alıb.

**Korpusda 24 VİP nömrəsi var.**

**2 nəfərlik 1 otaq** - 35-45 dollar

**1 nəfərlik 1 otaq** -40-49 dollar

**2 nəfərlik 2 otaq** - 44-49 dollar

1 otaqlı VİP nömələrdə 1 və 2 nəfərlik yataqlar, şkaf, kiçik masa, stullar, 2 tumba, televizor, soyuducu, komod, 2 ədəd xalat, dəsmal, sanuzel, balkon var.

**Əgər VİP nömrədə yox, standart otaqda qalmaq istəyirsizsə, bu halda qiymətlər fərqlidir.**

**2 nəfərlik 1 otaq** - 27-29 dollar (1-ci korpusda)

**2 nəfərlik 1 otaq** - 30-33 dollar (2-ci korpusda)

**1 nəfərlik 1 otaq** - 30-32 dollar (1-ci korpusda)

**1 nəfərlik 1 otaq** - 33-36 dollar (2-ci korpusda)

**2 nəfərlik 2 otaq** - 32-33 dollar (1-ci korpusda)

**2 nəfərlik 2 otaq** - 35-36 dollar (2-ci korpusda)

❑ Sevinc TELMANQIZI

# Quş qatarını pozan qətərlilər və cərimə verən bizimkilər



Samir SARI

**"Barselona" futbolçularının köynəyində "Qatar airlines" sözlərini oxuyur, adını tez-tez eşidirik, adama elə gəlir ki, Qətər adlı ölkə yekə bir yerdir. Xeyr, elə deyil. Dünyanı topa bənzətsək, Qətər o topun üstündə qonmuş mığmığa boyda da deyil, onu orda görmək üçün gərək lupa ilə baxasan.**

Başqa sözlə, Qətər təxminən bizim Şamaxının sovet dövründəki ərazisi (yəni Mərəzə ilə bir yerdə) boyda bir ölkədir.

Özü də Şamaxıdan fərqli olaraq, ora təbiətin dilbər guşəsi-zadı deyil, Qətərdə iki ağacı yanaşı görəndə meşə deyirlər, çünki bitki örtüyü sarıdan kasadçılıqdır.

Şamaxı ilə Qətərin çox fərqi var, biri də odur ki, Qətərdə çoxlu milyarderlər, şeyxlər, şeyxzadələr yaşayır. Şamaxıda əsas istehsal məhsulu şor olarkən, şor sulu, şoran torpaqlı Qətərdə yerin altında qara qızıl fışqırır, şır-şır axır, yerli əmirlər də ağızlarını quyuya dirəyib hey əmirlər.

Adamların pulu o qədər çoxdur ki, xərcləməyə yer tapa bilmirlər, özlərinə cürbəcür əyləncə uydururlar. O əyləncələrdən biri də ovdur.

Bildiyimiz kimi, bu regionda ova həvəs hələ Yezidin qeyri-legitim hakimiyyəti dövründən (hələ ondan da əvvəl) dəbdədir. Bəzi məxəzlərə görə, o vaxt xəlifə Müaviyə hakimiyyəti oğluna ötürmək üçün axtaranda xəbər veriblər ki, oğlu ovdadır, o da hirslənib ki, camaat seçki kampaniyasına hazırlaşarkən ov vaxtıdırmı...

Xülasə, ərəb tarixini çox vərəqləməyək, onsuz da təzədən yazılmaqdadır. Keçək müasir ərəb şeyxzadələrinin ov şövqünə.

Onlar bu ehtiraslarını öldürmək üçün bir çox ölkələrə səfər edirlər. Son vaxtlar Azərbaycanımıza da dadanıblar. Keflərinə düşəndə alıcı quşlarını da götürüb gəlirlər Mil-Muğan düzünə, villalar, ciplər kirayələyir, çadır qurur, ov ovlayır, quş quşlayırlar.

Quşlamaq demişkən, şeyxzadələrin ovçuluğu ilə bağlı danışarkən bəzi məmurlar da "quşlayır"lar, biri deyir, heç elə şey yoxdur, yanlış informasiyadır, ərəb hara, Hacıqabul, Salyan hara. Sonra mətbuatda ərəblərin doğma ellərdə ov ovladıqları yerdə çəkilmiş şəkilləri yayılanda başqa söz danışırlar, deyirlər, ov turizmindən ölkəyə xarici valyuta daxil olur. Lap axırda məlum olur ki, bu haqq-hesaba görə dövlət büdcəsinə heç bir valyuta daxil olmur və heç də ov mövsümü deyilmiş, onda söhbət dəyişir, başlayırlar "günahkar keçi" axtarmağa.

Budur, artıq şeyxzadələr builki ov macəralarını bitirib, həvəslərini alıblar və quşlarını (alıcı və vurulmuş) da götürüb, öz ölkələrinə qayıdıblar, amma onların söhbəti davam edir. Təbii Sərvətlər Nazirliyi (nazirliyin adındakı "Ekologiya" kəlməsi də var) də tutub şeyxzadələrə, türkün sözü, yardım-yataqlıq etmiş bir kənd adamını 18500 manat məbləğində cərimələyib.

Belə çıxır ki, ərəbləri bura dəvət edən hansısa vəzifəli şəxsdə, onları qarşılayanlarda, ov yeri tuşudanlarda, silah-sursatla təmin edənlərdə, təbii sərvətlərimizi - quşlarımızı güllələyib qatarını pozan qətərli ərəblərdə günah yoxdur, günahın hamısı onları kənddən qırağa, çölün düzünə aparan kənd adamındadır.

Bu qədər baiskarın içindən o adamı necə tapıblar, necə seçiblər, mat qalmalı işdir.

Yəqin, hökumət adamları eşidiblər ki, Qətər əmiri Şeyx Hamad bin Xəlifə əl-Taninin oğulları yerli bələdçiyə 18 min dollar pul verib gediblər, bunlar da düşünüblər ki, həmin pulu onun əlindən alsınlar, iş də bağlansın.

Şeyxzadə və 18 rəqəmi oxucuya bir yerlərdən tanış gələ bilər. Bəli, Hacıqabulda quş ovlayan şeyx oğlunun 18 milyard dollarlıq sərvəti (bu, qeyri-təbii sərvətdir) olduğu deyilir. Baxırsan, əsgərliyini çəkib gələndən sonra əmisioğlunun əliylə Bakıda avtobus sürücüsü düzəlmiş rayon uşaqlarına oxşayır, amma 18 milyardı var.

Bəs bu şeyxzadələr nəyə görə ölkəmizə dadanıblar? İlk növbədə ona görə ki, onları burda himayə edənlər var. İkincisi, ona görə ki, başqa ölkələr onlara həvəslə qucaq açmırlar. Məsələn, Avropanın ən kasıb ölkəsi belə istəməz ki, şeyxzadələr gəlib onların ölkələrinin quşunu vursun - özü də hər kefi istəyəndə.

**Buralar isə tarixən ərəblərin ov yeri, ovalığı olub.**

YENİ MÜSAVAT
N 230 (6258) 17 oktyabr 2015

# Yağışların piyadalara yaratdığı daha bir "sürpriz"

## Səkidə avtomobil saxlayanlara hansı cəza düşür?



**Bakıya yağış yağan kimi piyadaların hərəkətində əlavə ciddi manеələr yaranır. Belə ki, yollarda bir sıra problemlərlə yanaşı, səkilərdə park edilən avtomobillər də insanlara maneəyə çevrilir.**

Səkilərdə maşınlarını park edən sürücülərin sayəsində piyadalar avtomobil yoluna keçirlər ki, bu da ən yaxşı halda onların yanlarından ötən nəqliyyat vasitəsinin təkərlərindən çıxan palçıqlı su ilə islanmaları ilə nəticələnir. Pis halda isə piyadanı maşın vurur.

Səkidə avtomobil saxlayan sürücülər görünür xəbərdar deyillər ki, piyadanın yolunda bir dəqiqəliyinə belə dayanmaq qayda pozuntusudur. Sürücü piyadadan onun yoluna çıxmamağı tələb etdiyi kimi, piyada da qanunla sürücüdən öz haqqını tələb edə bilər.

Hazırda paytaxtımızda 70-ə yaxın küçə və prospektdə hərəkəti tənzimləyən 300-dən artıq parkomatlar quraşdırılıb ki, bunun da nəticəsində avtomobillərin park edilməsinə şərait yaradıb. Eyni zamanda avtomobillərin park edilməsi üçün xeyli sayda yeraltı çoxmərtəbəli duracaqlar fəaliyyət göstərir. Lakin buna baxmayaraq, sürücülər ödənişli parkamotlardan istifadə etməkdənsə piyadaların yolunda avtomobil saxlamağı üstün tutmaqda davam edirlər.

Problem barədə qəzetimizə danışan **ekspert Ərşad Hüseynov** bildirdi ki, səkidə avtomobil saxlayan şəxslər qanunla cərimə olunur: "Cərimənin məbləği 20 manatdır. Eyni zamanda əgər həmin avtomobil təxliyə olunursa, dayanma-durma qaydasını pozduğu üçün sürücü inzibati məsuliyyətə cəlb olunur. Təxliyə olunduğu zaman 20 manat cərimədən əlavə, təxliyə haqqı ödənilməlidir".

**Onu da qeyd edək ki, "Yol hərəkəti haqqında" Qanunun 52, 53-cü maddələrində bu açıq şəkildə təsbit olunub. 53-cü maddədə deyilir: I.** Nəqliyyat vasitələrinə xüsusi olaraq ayrılan, nişanlarla və ya nişanlama xətti ilə işarələnən yerlərdə parklanmağa icazə verilir. **II.** Yol hərəkətinin təhlükəsizliyini təmin etməyən yerlərdə və yolun hərəkət hissəsində nəqliyyat vasitələrinin parklanması qadağandır.

❑ **Əli RAİS**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

# Oğurlanan maşın aşkarlandı, amma...

## Şirvan sakini nazirdən kömək istəyir

**Şirvan şəhər sakini İnqilab Mürvət oğlu Zərbəliyev Daxili İşlər Nazirliyinə məktub yazıb. Redaksiyamıza təqdim olunan məktubun surətində müəllif daxili işlər nazirinə müraciətlə yazır ki, 10 ay əvvəl, yanvarın 20-dən 21-nə keçən gecə Sabunçu rayonu, Zabrat qəsəbəsi, N.Nərimanov küçəsi 35 saylı ünvanın qarşısından oğluna məxsus maşın oğlanıb:**

"Həmin ünvanda kirayə yaşayan oğlum İntiqam Zərbəliyevə məxsus "VAZ-2106" markalı, 01 BN 845 nömrə nişanlı avtomabili oğurlandı. Sabunçu Rayon Polis İdarəsinin 15-ci polis bölməsində maşının oğurlanması haqda məlumat verdik. Fakt üzrə araşdırma aparıldı və avtomobili oğurlayan şəxs tutuldu. Təxminən iyun ayında 15-ci polis bölməsinin Turqay adlı əməliyyatçısı oğlum İntiqama zəng vurdu və maşında olan nişanları soruşdu. Oğlum maşınında olan nişanları polislərə deyəndən sonra özünü dəvət edib Maştağada yerləşən avtomobil servisində aşkarlanan maşına baxış keçirdilər. Maşını oğurlayanlar özləri də etiraf edib ki, həmin maşın sizindir. 15-ci polis bölməsinin rəhbərliyi dedi ki, narahat olmayın, avtoservisin müdiri maşını necə sökübsə, elə də yığıb özünüzə qaytaracaq. Sonradan isə dedilər bağışlayın, yalnışlıq olub, maşın sizin deyil. Guya ekpertiza avtomobilin "kuza"sında olan nişanın dəyişdirilmədiyi barədə rəy verib. Mən isə buna qəti inanmıram. Avtomobilin "kuza"sında olan nişan aydın şəkildə görünürdü ki, zədələnib. Oğrular özləri etiraf edirlər ki, maşın sizindi və "kuza"sının nişanını pozmuşuq. Amma bu gün avtoservisin müdirinə görə halal maşınımıza sahib çıxmağa imkan vermirlər. Oğlum o maşınla işləyib 5 nəfərdən ibarət olan ailəsini dolandırırdı. 10 aydır ki, zülmdə, zillətdəyik. Xahişimiz budur ki, maşınımızı qaytarsınlar".

❑ **E.HÜSEYNOV**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

**Məşhur Qırğızstan balı Respublika sərgi - satış yarmarkasında**

- *Arı südü*
- *Mumiya*
- *Möhtəşəm ağ bal*
- *İssık-Kul balı*
- *Esparset balı*
- *Çayek balı*
- *Karkıra balı və s.*

**Ünvan**: Bakı şəhər, Nizami küçəsi 154 (keçmiş ayaqqabı fabriki) masa 137.

**Tel:** (051) 922-15-71



# Bakıda ofisiantı küçədə bıçaqladılar

**Bakıda restorandan evə gedən ofisiant gözlənilməz zərbə alıb. Criminal.az-ın məlumatına görə, Şirvan sakini olan 24 yaşlı Kamil Məmmədovun qarşısını kəsiblər. Həmin şəxs bıçaqla Kamili hədələyərək pullarını verməsini tələb ediblər. Kamil onlara müqavimət göstərəndə isə bıçaq zərbələri alıb. O, qan içərisində xəstəxanaya çatdırılıb.**

Qeyd edək ki, K.Məmmədov Şirvan rayon sakinidir. İşləmək üçün Bakıya gəlib və "Piano" restoranında ofisiant işləyir.

# Avtobus sürücüsü öldürüldü

**Sumqayıt şəhərində sözləri çəp gələn avtobus sürücüsü ilə sərnişinin davası ölümlə nəticələnib. Ötən gün Sumqayıt şəhərində qətl hadisəsi baş verib. Criminal.az Milli.Az-a istinadən xəbər verir ki, şəhər sakini, sürücü Səmid Ağayev idarə etdiyi "Hyundai" maralı avtobusunda Laçın rayon sakini Bəhruz Babayev tərəfindən bıçaqlanıb.**

DİN-dən verilən məlumata görə, sürücü bıçaqlanan an sükan arxasında olub. İdarəetməni itirən Səmid Ağayev Qürbət Əsədovun sürdüyü "Mercedes" markalı avtomobil ilə toqquşub. Hadisə yerinə təcili tibbi yardım briqadası gəlsə də, xəsarət alan şəxsə kömək etmək mümkün olmayıb. Belə ki, S.Ağayev xəstəxanaya aparılarkən yolda dünyasını dəyişib. Bəhruz Babayev isə Sumqayıt ŞPİ 1-ci PB əməkdaşları tərəfindən saxlanılıb.

# Bu il qanunsuz balıq ovlayan 20 nəfər məsuliyyətə cəlb olunub

**"Bu ilin 9 ayı ərzində su bioresurslarının mühafizəsi və balıq ovu qaydalarına riayət edilməsi ilə bağlı qanunvericiliyə uyğun olaraq 20 nəfər məsuliyyətə cəlb olunub". Bunu "Report"a açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamentinin aparıcı müfəttişi İsmayıl Yunusov bildirib.**

Onun sözlərinə görə, bu ilin ötən dövrü ərzində qanunsuz balıq ovu ilə məşğul olanlara qarşı 37 cinayət işi başlanılıb: "Bəzi işlərə isə departamentdə baxılaraq müvafiq qərar qəbul edilib".

**Nazirlik rəsmisi deyib ki, qeyd olunan müddətdə qanun pozucularından 7 033 ədəd müxtəlif adda ov aləti və qanunsuz ovlanmış 725 ədəd müxtəlif növ balıq götürülüb:** "Qanunsuz balıq ovu ilə məşğul olan adamlardan götürülən balıqlar nazirlik adından satış müəssisələrinə təhvil verilir, əldə olunan vəsaitlər dövlət büdcəsinə ödənilir".

**İ.Yunusov qeyd edib ki, qanunsuz balıq ovladığına və ya balıq ovu qaydalarını pozduğuna görə məsuliyyətə cəlb edilən qanun pozucularına qarşı balıq ehtiyatlarına vurduğu ziyana görə 41 500 manat məbləğində iddia qaldırılıb:** "Həmin şəxslərə qarşı 23 900 manat məbləğində cərimə tətbiq edilib. Tətbiq edilən cərimələrin bu günə qədər 10 900 manatı ödənilib".

**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**

YENİ MÜSAVAT
N 230 (6258) 17 oktyabr 2015



# Ərəb şeyxləri Azərbaycanda ov etməyi sevir, çünki...

## Pulunu balta kəsməyən milyarderləri ölkəmizə gətirən ilginc səbəblər və gözlənilməz sonluqlar

**Ərəb şeyxlərinin Azərbaycandakı ov sərgüzəştləri artıq adiləşib. Onlardan sonuncusu keçən həftə gerçəkləşmiş və sonu da cərimələnmə ilə bitmişdi. "Yeni Müsavat" isə bu günə qədər Azərbaycana ov məqsədilə gəlmiş şeyxlərlə bağlı kiçik xatırlatmalar edərək, onların hekayələrini diqqətə çatdırır.**

İlk belə qalmaqallı ov 2012-ci ilin noyabrın 25-də Salyanda baş tutmuşdu. Neftçala, Salyan, Biləsuvar və Cəlilabad ərazilərini əhatə edən Mahmudçala ovçuluq təsərrüfatında ova gələn nüfuzlu ərəb Qətər dövlətinin eyni zamanda xarici və daxili işlər naziri olan Casim bin Caber əl-Tani idi. Qonaqları gəzdirmək üçün onlarla 30-a yaxın "CİP" ayrılıb, onlar rayonun "Kür" mehmanxanasında yerləşdirilmiş və ovçuları polis mühafizə etmişdi. Ov 9 gün davam etmişdi. Ov zamanı adı "Qırmızı kitab"a daxil edilmiş bəzgək quşu və şahin qonaqlarda xüsusi maraq doğurmuşdu. Ovçu dəstəsinə Qətərin baş naziri, eyni zamanda XİN və DİN rəhbəri Həmid bin Casim bin Caber əl-Tani rəhbərlik edib. O, özü ilə 11 oğlunu, 100-ə yaxın müşayiətçi və xidmətçi gətirib. Rayondakı "Kür" hoteli və "Toyota" markalı 30 "CİP", bir avtobus bütünlüklə onların ixtiyarına verilib. Ləvazimat və avadanlıqları daşımaq üçün iki yük maşını ayrılmışdı.

Azərbaycanın baş naziri Artur Rasizadənin, habelə xarici işlər və daxili işlər nazirlərinin Qətər şeyxini müşayiət etməsi həmin vaxt yayılan xəbərlər sırasında olsa da, onların bu müşayiəti ov boyunca davam edib-etmədikləri isə qaranlıq qalmışdı.

Ərəb şeyxlərinin şahin ovunun möhkəm həveskarları olması çoxdan məlumdur. Onlar ovladıqları və ya pulla aldıqları şahinləri əhliləşdirir, daha sonra bu quşlarla ova çıxırlar. Bu səbəbdən nəsli kəsilməkdə olan quş növlərindən sayılan qızılquş və qartalı ovlamaq və ərəb ölkələrinə aparıb satmaq xeyli gəlirli biznes sayılır. SSRİ-nin dağılmasından sonra ittifaqa daxil olan respublikalardan, eləcə də Azərbaycandan bu quşların ovlanaraq ərəb ölkələrinə daşınması başlayıb. Bəzi məlumatlara görə, ərəb ölkələrində belə quşlardan birini hətta 20-30 min dollara alırlar. Onların alıcıları varlı ərəblərdir. Şeyxlər xüsusi olaraq öyrədilmiş şahinlərlə müxtəlif ölkələrdə ova çıxmağı və onların vasitəsilə digər quşları, habelə şahinlərin özlərini ovlamağı öz xobbilərinə çeviriblər.

Şeyxlər son illərdə Qazaxıstan, Ukrayna, Belarus və Qırğızıstana da bu məqsədlə bir neçə dəfə səfər ediblər. Məsələn, 2011-ci ildə Qazaxıstan hökuməti üç ərəb şeyxinin ölkə ərazisində noyabrın 10-dan 30-dək ov etməsinə icazə verən xüsusi qərar çıxarıb. Həmin qərar əsasında Birləşmiş Ərəb Əmirliklərinin şeyxi Xəlifə bin Zaidə Qazaxıstan ərazisindəki ovçuluq təsərrüfatlarından birində 100 baş dovdaq ovlamağa icazə verilib. Həmin ölkədən olan digər şeyx Surur bin Muhammedə isə qərarla 80 dovdaq ovlamağa icazə verilmişdi. Səudiyyə Ərəbistanından olan şahzadə Abdel Əziz bin Əhməd bin Abdel-Əziz əl-Saud isə 40 dovdaq ovlamağa icazə alıb. Həmin qərar Qazaxıstan ekoloqlarının etirazlarına səbəb olmuşdu, çünki dovdaqların həmin növünün nəsli kəsilmək üzrədir.

2015-ci ilin mayında Azərbaycana daha bir ərəb şeyxi ova gəlib.

Ərəb zənginləri həmin vaxt ölkənin Qəbələ rayonunda olublar. Səfər zamanı onlar rayonun gəzməli yerlərinə baş çəkib, ova çıxıblar. Qəbələ səfəri zamanı şahzadələrdən biri burda çəkdirdiyi şəkilləri də paylaşıb. Ondan qısa müddət öncə də 18 milyard dollar sərvəti olan Dubay şahzadəsi Həmdan bin Məhəmməd bin Rəşid Azərbaycana səfəri zamanı Qəbələdə olmuşdu.

Digər ərəb milyonçuları isə Qızılağac qoruğunda olmuşdular. Hətta onların "Galenvagen" markalı maşını Neftçala ərazisində palçığa batmış, onları isə traktor xilas etmişdi.

Ərəblər də səxavət boxçalarının ağzını açıb onlara köməyə gələnləri sevindirmişdilər. milyarder ərəb şeyxləri yenidən Azərbaycana gəliblər.

Qəbələ səfəri zamanı ərəb milyarderlər Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərovla görüşüb və şəkil də çəkdiriblər.

2015-ci ilin martında da ölkəyə, eləcə də dünyaya səs salan daha bir ov səfəri olmuşdu. "Forbes" jurnalının yazdığına görə 18 milyard varidatı olan Dubay şahzadəsinin Azərbaycana gəlişi maraqla qarşılanıb. Dubay Şahzadəsi şeyx Həmdan bin Məhəmməd bin Rəşid ov həvəskarı imiş. Onunla bərabər ölkəmizə 15-ə yaxın dost-tanışı da gəlib.

Şahzadə "Fairmont Baku" otelində gecələyib, Bakının küçələrində, bulvarında gəzib, selfie çəkib. Bir neçə günlük Bakıda qonaq olan şahzadə helikopterlə Hacıqabula yollanıb. Qonaqlar rayonunun Qarasu və Muğan kəndlərində bəzgək quşları ovlayıblar. Ovda xüsusi öyrədilmiş şahinlərdən də istifadə olunub. Ümumiyyətlə, ərəblərin şahin quşlarından istifadə etməklə ov etməsi yeni adət deyil. Şahzadə və ətrafının Qarasudakı ovu 2 saata yaxın davam edib. Bildirib ki, Şahzadənin ovda selfie çəkmək kimi hobbisi var.

"Fazza" ləqəbilə şerlər yazan şahzadə Dubayın şeyxi Məhəmməd bin Rəşid əl-Məktumun 19 övladından biridir.

Ondan öncə isə ərəb zənginləri üç həftəyə yaxın Mil düzündə - Kür-Araz ovalığının cənub-qərb hissəsində ova gəlmişdilər. Onların arasında Qətər əmirinin oğlanları, qardaşları olub. İnternetdə yayılan kadrlardan görünür ki, Qətər şeyxləri iki 6 təkərli "Gelandewagen", "Range Rover Cabrio" və daha 8 yol avtomobili ilə paytaxtda şütüyürlər. Ərəblər ov zamanı Saatlı rayonu ərazisində, Mil düzündə çadırlar quraraq orada qalıblar. Neftçala ərazisində isə bəxtləri gətirməmişdi. Dəyəri yarım milyon dollardan artıq olan avtomobilləri palçığa batmışdı. "Mercedes Benz", "Gelandewagen"i eyni markalı digər avtomobillə çıxarmaq cəhdi uğursuz alındığından avtomobillər aşıb. Turistlərin köməyinə yerli neftçalılar gəlib, aşmış avtomobilləri traktorla ərazidən çıxardıblar.

**Amma hər dəfə bu səfərlərdən sonra ölkədə səs-küy düşür. Çünki ərəb şeyxləri nəsli kəsilməkdə olan quşları ovlayırlar. Bununla bağlı media daha öncə Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edib. Nazirliyin mətbuat xidmətindən isə ovla bağlı onlara hər hansı müraciət olunmadığı bildirilir.**

❑ **Sevinc TELMANQIZI**

# Qadınların sevdiyi, kişilərin isə gizlətdiyi nişan üzüyü



## Psixoloq: "Qadınlar nişan üzüyünü ən çox əsəbiləşən zaman çıxarırlar, kişilər isə ..."

**Kişilər ilk zamanlarda nişan, toy üzüyünü taxsalar da sonradan bir qayda olaraq, onu çıxarıb kənara qoyurlar. Bunun səbəbini soruşduqda isə onlar üzük taxmağı sevmədiyini, bəzən isə qızıl taxmağı xoşlamadığını bildirirlər.**

*Çox zaman da xanımlar öz həyat yoldaşlarının üzüyü taxması üçün bəzən onu ağartdırırlar ki, kişinin tam zövqünə uyğun olsun. Bu zaman da kişi üzüyü taxmayanda artıq qadının beynində onun sədaqətsiz olması və ya nişanlı, evli olduğunu kimdənsə gizlətməsi fikri yaranır. Bəs əslində necədir, doğrudanmı kişinin öz nişan üzüyünü taxmaması sədaqətsizliliyinin göstəricisidir? Ümumiyyətlə, nişan üzüyünün anlamı nədir və onun taxılması vacibdirmi?*

Hələ qədim zamanlardan üzük əbədi sevgi rəmzi hesab olunub. Çünki üzük qapalı dairə formasındadır, bu da əbədi sabitliyi ifadə edir. Nişan üzüyü ənənəsi bəzi mənbələrə görə Misirdə, digər mənbələrə görə Qədim Yunanıstanda yaranıb. Amma hər iki mənbədə də nişan üzüyü sol əlin adsız barmağına, münasibətlər rəsmiləşdirildiyində, yəni evlilik zamanı sağ əlin adsız barmağına taxıldığı qeyd edilir. Dövrümüzdə də buna əməl edilir. Nişan üzüyünün sol əlin adsız barmağına taxılmasının səbəbi ürəyə gedən tək damarın məhz bu barmaqdan keçməsidir. Bu da nişanlılar bir-birindən uzaq olsalar da onların ürəklərinin daim bir olduğu anlamına gəlir.

**Ümumiyyətlə hər bir barmaq müəyyən mənanı ifadə edir.** Azərbaycanda işarə barmağa üzüyün taxılması xanımın heç bir münasibətdə olmadığını göstərir. Bundan başqa, işarə barmağındakı üzük geyinilən libasa diqqət çəkmək üçün də ola bilər. Baş barmaqda üzük taxan qadınlar adətən sərbəstliyi sevən və hər hansı münasibətə başlamaq ərəfəsindədirlərsə, həmin əlaqəyə mütləq hörmət edilməsinin vacibliyini göstərəndirlər. Baş barmağına üzük taxan xanımlar, adətən qısamüddətli münasibətlərə üstünlük verirlər.

Orta və çeçələ barmaqda üzük taxan qadınlar isə güvənilə bilən, istedadlı, sirr saxlamağı bacaran, nizam-intizamı sevənlərdir. Adsız barmaqdakı üzük isə yuxarıda qeyd etdiyimiz kimi nişanlılığın əlamətidir. Əvvəllər istifadə olunmuş üzüyü nişan üzüyü kimi istifadə etmək yaxşı əlamət deyil. Yalnız irsi olaraq verilən üzük istisnadır. Toy-düyünə gedərkən daha gözəl, daha yaraşıqlı görünmək üçün qız-gəlinlərimiz bəzən başqalarından qızıl məmulatları alıb taxırlar. Lakin bu əşyaların onlara verdiyi mənfi enerjidən xəbərləri olmur. Belə ki, işlənmiş hər bir bəzək məmulatı ilk sahibinin taleyini özündə cəmləşdirdiyindən, ondan istifadə edən digər adamların da həyatı ona bənzər olur.

**Psixoloq Dəyanət Rzayev** nişan üzüyünü əsasən kişilərin taxmadığını bildirdi: "Nişan üzüyünü əsasən kişilər taxmır. Qızlar nadir hallarda, nişanlısı ilə hansısa məsələ üstə mübahisə edəndə ola bilər ki, acıq edib taxmasın. Xarici ölkələrdə belə bir şey var. Bizim üçün qadının xəyanəti necə faciədirsə, xaricdə də kişinin xəyanəti bir o qədər faciədir. Digər ölkələrdə kişinin xəyanətinə çox pis bir münasibət var. Öz praktikamda da rastlaşmışam ki, kişilər düşünürlər ki, öz nişanlılarına, həyat yoldaşlarına həftədə ya ayda bir dəfə xəyanət edə bilərlər. Onların düşüncəsinə görə, kişi hər şey edə bilər, amma qadın yox. "Kişi istədiyi yerə gedər" anlayışı yalnız azərbaycanlılarda var. Bu düşüncəni başqa millətlərdə görə bilməzsiniz. Bunun da fərqləri var. Xarici ölkələrdə kişi başqa qadınla görüşəndə etiraf edir ki, mən nişanlıyam, yaxud evliyəm. Amma Azərbaycanda kişi öz məqsədinə çatmaq üçün hər bir yola əl atır. Hətta nişan üzüyünü də çıxardır ki, mən subayam və görüşdüyü qadına öz məqsədi naminə ümidlər verir. Bu da təbii ki, alçaqlığın son həddidir".

**Əsəbiləşən zaman barmağındakı nişan üzüyünü çıxarıb atmağın daha çox qadınlara məxsus bir davranış olduğunu deyən psixoloq bunun başqa bir məqsəd daşımadığını, yalnız əsəbdən irəli gəldiyini bildirdi:** "Qadınlar bunu daha çox əsəbiləşəndə edirlər. Hansısa başqa oğlanla görüşmək və ya xəyanət məqsədi ilə bunu etmir. Sadəcə olaraq öz hirsini tökmək üçün belə bir şey nümayiş etdirə bilər".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 230 (6258) 17 oktyabr 2015

# Robotla idmana maraq artıb



Sinqapurda xalqın idmana alışması üçün çalışan robotlardan istifadə edilməyə başlayıb. Xalq yeni robotlara yaxından maraqlanır." Ngee Ann Polyrecnic" adlı məktəbdəki mühəndislik fakültəsinin tələbələri hazırlanan robot idman haqda detallı məlumat verirlər. Robocoach adlı robot bədənin üst hissəsini çalışdıran 15 fərqli idman hərəkəti etdirə bilir. Robot hazırda bəzi idman mərkəzlərində xəstələrə xidmət edir. Yaxın zamanlarda bütün idman zallarında hər kəs tərəfindən istifadə edilə biləcək. Robot sensorların köməyi ilə idman edən şəxslərin hərəkətlərinə nəzarət edir və hər kəsin eyni vaxtda idman etməsinə kömək edir.



## İnsulin üçün peçenye

Diabet xəstələri üçün ağrı verən insulin iynələrinin əvəzinə eyni miqdarda insulin ehtiva edən peçenye hazırlanıb. İngiltərədə bir firmanın hazırladığı və Avstraliyada 50-yə yaxın diabet xəstəsi üzərində sınaqdan keçirilən peçenyenin daha tez nəticə verdiyi məlum olub. Qısa müddətdə damarlara təsir edən insulin hormonu daşıyan MLS-001 adlı peçenye gün ərzində bir neçə dəfə iynədən istifadə etməyə məcbur olan diabet xəstələrini bu dərddən xilas edir.



## Zənginlərin qiyamət sığınacağı

Almaniyanın Rothenstein bölgəsində inşa edilən 1 milyard dollarlıq "Qiyamət sığınacağı" hər kəsin diqqət mərkəzindədir. Bu sığınacaqlar üçün Avropanın ən zəngin 34 ailəsi müraciət edib. Milyonerlər üçün inşa edilən sığınacaqda zənginlər 1 il bayıra çıxmadan yaşaya biləcəklər. 5-ulduzlu sığınacaq meşəlik bir ərazidə, yerin altında salınıb inşa edilib. Bu müddətdə onun sakinləri hovuz, teatr, fitnes, restoran və vertolyot xidmətindən istifadə edə biləcəklər.



## Pul şəklinə görə öldürüldü

Amerikanın Filadelfiya ştatında yaşayan Toni Harris adlı kişi arvadının facebook sosial şəbəkəsində paylaşdığı şəklə görə öldürülüb. Hadisə 50 yaşlı kişinin evindəki 60 min dolların sosial şəbəkədə paylaşılmasından sonra baş verib. Facebookda paylaşılan şəkildə görünür ki, Harrisin arvadı Amber Crane pullarla birlikdə poz verib. Şəkilin paylaşılmasından bir müddət sonra cütlüyün evinə 3 nəfər gəlib və Harrisi öldürərək evdəki pulu oğurlayıblar. Hazırda polis 3 nəfərin kim olduğu haqda araşdırma aparır.

# Kökün faydaları

**İnsan orqanizmi üçün çox önəmli olan kökün 10 ən faydalı cəhəti aşağıdakılardır:**

**1.** Kök və kök şirəsi az kalorili olmasına baxmayaraq qidalandırıcıdır. Artıq çəkidən xilas olmağa kömək edir.

**2.** Qaraciyərin funksiyasının qorunması, həzm sistemi üçün çox faydalıdır.

**3.** Tərkibindəki E vitamini xərçəngin əmələ gəlməsinin qarşısını alır.

**4.** Yaşlandıqca bədəndə yaranan ağrı və sızıltıların qarşısını kök şirəsi içməklə almaq mümkündür.

**5.** Təbii A vitamini mənbəyi olduğu üçün gözlərin sağlamlığını, görmə qabiliyyətini artırır.

**6.** Tərkibindəki kalium və sellüloz xolesterinə, hipertoniyaya qarşı mübarizədə effektlidir.

**7.** Öd kisəsi və qaraciyər fermentlərinin tənzimlənməsinə böyük təsir göstərir.

**8.** Dərini cavanlaşdırır və gözəlləşdirir.

**9.** Qocalma prosesini ləngidir.

**10.** Azacıq limon və zeytun yağı əlavə etməklə hazırlanan kök salatı zehni itiləşdirir, qavrama prosesini sürətləndirir.






## Beyni böyük olanlar daha ağıllı deyilmiş

**Vyana Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, insanın ağıllı olması onun beyninin böyük və ya kiçik olması ilə əlaqədar deyil. Avstriya xəbər agentliyindən verilən məlumatlara görə, intellektual performans beynin böyüklüyü ilə yox, beyin daxilindəki ağ və boz maddələrin balansından asılıdır.**

Araşdırmalara görə, qadınları beyni kişilərin beyni ilə müqayisədə daha böyükdür. Lakin kişilərin məntiqi bir çox hallarda qadınlarla müqayisədə daha güclüdür. Araşdırmada iştirak edən Piteçing Jacobun sözlərinə görə, beyinin və beyinciyin forması, beyinin daxilindəki ağ və boz maddələrin bir-birinə doğru şəkildə bağlanması güclü beyin üçün olduqca önəmli faktdır. Professorlar 88 fərqli sahədə və 8 min nəfər üzərində araşdırma aparıblar. Araşdırmanın nəticələri "Neuroscience & Biobehavioral" adlı jurnalda yayımlanıb.

## Qoroskop




**QOÇ** - Görünür, ünsiyyətdə olduğunuz insanları kifayət qədər yaxşı tanımırsınız. Çünki dəflərlə müşahidə etsəniz də onlara yenə inanırsınız. Bir az diqqətli olsanız, günboyu heç bir qanqaraçılığı ilə üzləşməyəcəksiniz.

**BUĞA** - İlk öncə bilməlisiniz ki, bu təqvim daxili tərəddüdlərinizi kifayət qədər səngidəcək. İşgüzar görüşlərdə iştirak etmək üçün böyük şanslarınız da olacaq. Uzaq səfərləri isə mümkün qədər təxirə salın.

**ƏKİZLƏR** - Hər şeydən əvvəl sağlamlığınızın qayğısına qalın. Qonşu və qohumlarınızla münasibətlərə xələl gəlməsinə macal verməyin, çox təhlükəlidir. Bu gün əlinizə düşən pulları boş məsrəflərə xərcləməyin.

**XƏRÇƏNG** - Təxminən saat 13-dən başlayaraq şərikli iş görmək üçün şanslarınız artacaq. Bundan maksimum yararlanmağa çalışın. Allahın buyurduğu savablardan istifadə edin. Uzaq yola çıxmağa lüzum yoxdur.

**ŞİR** - Çoxsaylı işgüzar görüşlər, perspektivli və yeni əlaqələr istər fəaliyyət zəminində, istərsə də qarşılıqlı münasibətlərdə sizə böyük səmərə verəcək. Pulla bağlı olan çətinlikləriniz də aradan qalxmağa başlayacaq.

**QIZ** - Bütün astroloji göstəricilər ümumi ovqatınızın yüksək olacağını bildirir. Qətiyyən passivləşmək olmaz. İşgüzar görüş və müzakirələrinizi intensivləşdirin. Amma məhəbbət amili də yaddan çıxmasın.

**TƏRƏZİ** - Bütün gücünüzlə ətrafınızdakı problemlərin ən kiçiyindən başlayaraq həll edin. Özünüzü qələbəyə tənzimləyin. Onu da unutmayın ki, ürəyinizdə eşq varsa, fani dünyanın əzablarına məğlub olmayacaqsınız.

**ƏQRƏB** - Qarşınızda duran bu zaman kəsiyindən fövqəladə bir şey gözləməyin. Belə ki, istər fəaliyyət zəminində, istərsə də qarşılıqlı münasibətlərdə ümumi axar passiv olacaq. Yalnız istirahətə yer ayırın.

**OXATAN** - Köhnə dostlarınızın köməyi ilə mövcud çətinliklərinizi dəf edəcəyinizə inanın. "Hər şeyin təzəsi, dostun köhnəsi" fikrinə ciddi yanaşın. Bu gün pulla bağlı da probleminiz olmayacaq.

**OĞLAQ** - Beyninizdə olan gözəl və qazanclı ideyaları tətbiq edin. Boş durmaq sizi ruhən xəstələndirə bilər. Ağıllı sandığınız insanlarla bir araya gəlin. Oturaq işlərə, kompüterə aludə olmağa ara verin.

**SUTÖKƏN** - Keçmişin acılarına qapılmaq sizə ağır zərbə vura bilər. Bir az nikbin olun, dünyanı, insanları sevin. Ulduzlar nahardan sonra bu istiqamətdə sizə şans yaradacaq. Yaxşı qidalanın.

**BALIQLAR** - Daha çox səhhətinizə fikir verin ki, qarşıdakı həftənin vəzifələrini həyata keçirə biləsiniz. Bu gün başlıca probleminiz olan maliyyə çətinlikləri qismən də olsa, qaydasına düşəcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ailənin qəribə loto şansı




Galli Jane və Alan Slater cütlüyünün evinə eyni gündə iki dəfə "tale quşu" qonub. Məsələ ondadır ki, Jane və Alan bir-birlərindən xəbərsiz Avropanın loto oyunu olan "Euromillions" bileti alıblar. Əvvəlcə Janenin biletinə 100 min avro uduş çıxıb. Lotonun cavabları çıxdığı zaman Alan da öz biletini axtarmağa başlayıb. Lotereya biletinin itdiyini başa düşən kişiyə iti kömək edib. Bilet tapan it sahibinə uduş gətirdikdən sonra Alan da lotodan 100 min avro qazandığını öyrənib. Eyni gündə iki dəfə lotodan pul qazanan ailə İngiltərədə məşhurlaşıb.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300